23 avqust 2024 №62 (2127) www.medeniyyet.az

# MƏDƏNİYYƏT

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin nəşri Qəzet 1991-ci ilin yanvarından çıxır

## Birinci xanım olmaq

### Tarix və talenin müəyyən etdiyi missiya

"Həyatda hər kəsin yerini və taleyini tarix müəyyən edir. Kimsənsə, elə də olmalısan. Özgələrin rollarını və obrazlarını gərək üzərinə götürməyəsən" – Mehriban Əliyevanın 20 il əvvəl, Azərbaycanın birinci xanımı kimi dediyi bu sözlər ötən müddətdə onun çoxşaxəli fəaliyyətinin ana xəttini təşkil edib.



Birinci xanım olmaq, əslində, tarix və talenin müəyyən etdiyi missiya idi və Mehriban Əliyeva bu yolun lap əvvəlindən özü, sözü, əməli ilə onu layiqincə yerinə yetirib. Onun Prezident İlham Əliyev ilə birlikdə müasir Azərbaycanın qurucusu, Ümummilli lider Heydər Əliyevin tarixi əmanəti olan müstəqil respublikamızın tərəqqisi naminə gördüyü bütün işlərdə, həyata keçirdiyi bütün layihələrdə yeni tariximizin, o cümlədən mədəniyyət salnaməmizin səhifələri yazılıb.

"2004-cü ildə Heydər Əliyev Fondu fəaliyyətə başlayanda biz qarşımıza bir məqsəd qoymuşduq – doğma xalqımıza, vətənimizə xidmət etmək. Elə ilk günlərdən biz ölkəmizin ictimai-siyasi həyatının bütün sahələrinə dərindən nüfuz edərək genişmiqyaslı layihələr həyata keçirməyə başladıq. Fəaliyyətimizin çoxşaxəli olmasına baxmayaraq, prioritet istiqamətləri müəyyən etdik və daha çox diqqət tələb edən problemlərin həllində yaxından iştirak etməyə çalışdıq" – on il sonra o, müsahibələrinin birində bildirmişdi.

O vaxt Azərbaycanın ən böyük problemi hamımıza bəlli idi. Ali Baş Komandan, Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusu 2020-ci ilin Vətən müharibəsində qazandığı Zəfər nəticəsində ölkəmiz tarixinin ən böyük sınağından üzüağ çıxdı.

Bu gün azad olunmuş ərazilərdə dövlətimizin başçısının və birinci xanımın yüksək diqqət və qayğısı ilə geniş bərpa və yenidənqurma işləri həyata keçirilir. Böyük Qayıdış sayəsində Qarabağ və Şərqi Zəngəzurda həyat yenidən canlanmağa başlayıb. Azad yurd yerlərinə Azərbaycanın mədəniyyəti də qayıdır. Mədəniyyətimizin gerçək himayədarı kimi Mehriban xanımın təşəbbüs və səyləri ilə həmin ərazilərdə tarixi irsin, abidələrin təmir-bərpası, yenidən qurulması istiqamətində sistemli iş aparılır.

Ulu öndərin dövlətçilik ideyalarının gələcək nəsillərə ötürülməsi, zəngin irsinin təbliğ edilməsi məqsədilə yaradılan Heydər Əliyev Fondu Mehriban xanımın rəhbərliyi ilə ölkəmizin milli-mənəvi və mədəni dəyərlərinin dünyada tanıdılması istiqamətində müstəsna xidmətlər göstərir. Bu sahədə reallaşdırılan yerli və beynəlxalq layihələr Azərbaycan mədəniyyətinin, tarixinin və dövlətçiliyinin bünövrələrini, xalqımızın özünə və ali dəyərlərə inamını möhkəmləndirir. Mehriban Əliyevanın təşəbbüsü və dəstəyi ilə ölkəmizdə reallaşan beynəlxalq muğam və klassik musiqi festivalları yüksək sənətə xidmət məramı ilə yanaşı, mədəniyyətlərarası dialoqa da böyük töhfədir.

Azərbaycanın maddi və qeyri-maddi mədəni irs nümunələrinin UNESCO-nun siyahılarına daxil edilərək bəşəri status qazanmasında Mehriban xanımın müstəsna xidmətləri var. Heydər Əliyev Fondunun xeyriyyəçilik fəaliyyəti, xüsusilə də 44 günlük Vətən müharibəsində və daha sonra şəhid və qazilərlə, onların ailələri ilə bağlı həyata keçirdiyi layihələr isə onun humanitar missiyasının bariz nümunəsidir.

"Tarixi-mədəni irs müntəzəm qayğı tələb edir. Mən dəfələrlə bunu söyləmişəm ki, itmiş hər hansı maddi dəyər əvəzedilməzdir. Ona görə də həm ölkəmizdə, həm də xaricdə mədəni irsin qorunması üçün əlimizdən gələni edirik" – Mehriban Əliyevanın bu fikri ümumilikdə mədəniyyət sahəsində fəaliyyət üçün istinad, yol xəritəsidir.

Avqustun 26-sı Mehriban Əliyevanın doğum günü və əlamətdar yubileyidir. Bu münasibətlə onu təbrik edir, ən xoş diləklərimizi bildirir, Azərbaycan adına və Azərbaycan naminə bundan sonrakı fəaliyyətində də tarixin və talenin müəyyən etdiyi missiyanı uğurla davam etdirməsini arzulayırıq.

## Möhkəm təməl üzərində tərəfdaşlığın yeni səhifəsi

### Prezident İlham Əliyev Özbəkistana dövlət səfərinə gedib

Avqustun 22-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Özbəkistan Respublikasına dövlət səfəri başlayıb.

İslam Kərimov adına Daşkənd Beynəlxalq Hava Limanında Prezident İlham Əliyevi və birinci xanım Mehriban Əliyevanı Özbəkistanın Baş naziri Abdulla Aripov və digər rəsmi şəxslər qarşılayıblar.

***

Son illər iki dost və qardaş ölkə – Azərbaycan və Özbəkistan arasında yüksək səviyyəli dialoq, dövlət başçılarının qarşılıqlı səfərləri, imzalanan sazişlərin uğurla icrası hər iki tərəfin strateji maraqlarına, eləcə də ümumilikdə Türk dünyasında işbirliyi və həmrəyliyin möhkəmləndirilməsinə xidmət edir.

Xüsusilə 2022–2023-cü illər Azərbaycan-Özbəkistan əlaqələrinin inkişafı baxımından məhsuldar olub. 2022-ci ildə dövlətimizin başçısının Özbəkistana üç dəfə səfər etməsi Azərbaycan Prezidentinin qardaş ölkə ilə əməkdaşlığın inkişafına böyük önəm verməsinin göstəricisidir. 2023-cü ildə isə (8 noyabr) Prezident İlham Əliyev İqtisadi Əməkdaşlıq Təşkilatının 16-cı Zirvə toplantısında iştirak etmək üçün Özbəkistanda səfərdə olub.

Prezident Şavkat Mirziyoyevin 2023-cü il avqustun 22-23-də Azərbaycana dövlət səfəri münasibətlərin tarixində yeni səhifə açdı. Bu səfər zamanı imzalanan sənədlər və yol xəritələri Özbəkistan-Azərbaycan strateji tərəfdaşlıq münasibətlərinin daha da möhkəmləndirilməsinə və çoxşaxəli əməkdaşlığın genişləndirilməsinə mühüm zəmin yaratdı.

Özbəkistan Prezidentinin işğaldan azad edilmiş ərazilərə – Füzuliyə və Şuşaya səfəri qardaş ölkənin Azərbaycanın həyata keçirdiyi bərpa-quruculuq işlərinə töhfəsinin və dəstəyinin daha bir göstəricisi idi. Səfər zamanı Özbəkistan Respublikası Prezidentinin hədiyyəsi olan Füzuli şəhər Uluqbəy adına 1 nömrəli tam orta məktəbinin açılışı da keçirildi.

Özbəkistan Prezidenti Şavkat Mirziyoyev ən son cari il iyulun 5-6-da Azərbaycanda olub və Türk Dövlətləri Təşkilatının (TDT) Şuşada keçirilən qeyri-rəsmi Zirvə görüşündə iştirak edib.

İki ölkə arasında bu vaxtadək imzalanmış 170-dən çox sənəd, o cümlədən Strateji tərəfdaşlığın dərinləşdirilməsi və hərtərəfli əməkdaşlığın inkişafına dair Bəyannamə bu əməkdaşlıq üçün möhkəm hüquqi baza yaradıb.



Bir sözlə, eyni soy-kökə və uzun tarixə söykənən Azərbaycan-Özbəkistan əlaqələri bu gün yeni dövrün reallıqlarına uyğun olaraq sürətlə inkişaf etdirilir. Əminliklə qeyd etmək olar ki, Azərbaycan Prezidentinin Özbəkistana budəfəki dövlət səfəri də artıq möhkəm təməl üzərində intişar tapan tərəfdaşlıqda növbəti əlamətdar səhifə açacaq.

davamı səh. 2-də

## Daşkənddə Azərbaycan sərgisi

Özbəkistanın paytaxtı Daşkənddəki "Uz Expo Centre"də İqtisadiyyat Nazirliyinin dəstəyi, İxracın və İnvestisiyaların Təşviqi Agentliyi – AZPROMO-nun təşkilatçılığı ilə Azərbaycan məhsullarına və ölkəmizdə göstərilən xidmətlərə həsr olunan "İqtisadiyyatın əsas istiqamətləri – ümumi rifaha doğru addım" adlı sərgi təşkil olunub.

İqtisadiyyat naziri Mikayıl Cabbarov və Özbəkistanın investisiyalar, sənaye və ticarət naziri Ləziz Kudratov iki ölkənin digər rəsmiləri ilə birgə avqustun 22-də sərgidə olublar.

Azərbaycanın zəngin memarlıq irsini əks etdirən dörd möhtəşəm qala ilə bəzədilmiş sərgi bir neçə tematik bloka ayrılıb.




Sərgidə ölkəmizin iqtisadi nailiyyətlərinə dair göstəricilər, sənaye və kənd təsərrüfatı məhsulları, rəqəmsal inkişaf sahəsində görülən işlər, nəqliyyat-logistika, enerji, turizm sektorlarının imkanları, reallaşdırılan innovativ layihələr, COP29 tədbiri və Azərbaycan-Özbəkistan iqtisadi əlaqələrinə dair videoçarxlar nümayiş etdirilir.

Sərgi Azərbaycanın biznes və investisiya mühitinin, yerli məhsul və xidmətlərimizin tanıdılması, sahibkarlar arasında təcrübə mübadiləsi, ixrac əlaqələri baxımından yeni fürsətlər təqdim edir.

Ziyarətçilərə həmçinin azad edilmiş ərazilərimizin bərpası prosesi ilə tanış olmaq imkanı yaradılır, yeni yaşayış məskənlərinin inşası və infrastruktur quruculuğu üzrə layihələr təqdim olunur.

davamı səh. 2-də

## Türkdilli region və dövlətləri birləşdirən yayım platforması yaradılacaq

Avqustun 21-də Mədəniyyət Nazirliyində türkdilli region və dövlətləri birləşdirən yayım platformasının yaradılması ilə bağlı müzakirə aparılıb.

Bildirilib ki, Azərbaycan mədəniyyətinin təbliği çərçivəsində yaradıcılıq sahələrinin inkişafının dəstəklənməsi, o cümlədən ölkəmizin kino potensialının təbliğ olunması, yerli kino sənayesinin inkişafına xarici mütəxəssislərin cəlb edilməsi istiqamətində müvafiq tədbirlərin həyata keçirilməsinə ehtiyac duyulur.

səh. 3

## "Qaqauz rəngləri – 2024"



Bu il Moldova Respublikasının Qaqauz Yeri muxtar bölgəsinin yaradılmasının 30-cu ildönümü qeyd edilir. Bu münasibətlə 19-27 avqust tarixlərində "Qaqauz rəngləri – 2024" beynəlxalq rəssamlar görüşü keçirilir. "TÜRKSOY-un rəssamlar görüşü" ənənəvi layihəsinə bu dəfə Qaqauz Yeri ev sahibliyi edir.

Qaqauz Yeri Baş Mədəniyyət İdarəsinin təşkilatçılığı və TÜRKSOY-un dəstəyi ilə gerçəkləşən tədbirin məqsədi Türk dünyası rəssamları arasında təcrübə mübadiləsinə şərait yaratmaq və qaqauz mədəniyyətini rəsmlərin dili ilə beynəlxalq aləmə tanıtmaqdır.

Azərbaycanın da təmsil olunduğu sənət görüşü "Müasir Qaqauz Yeri", "Qaqauz diyarının təbiəti", "Qaqauz xalqının adət-ənənələri" mövzularını əhatə edir.

Qaqauz Yerinin mərkəzi Komrat şəhərindəki Yerli Təsviri İncəsənət Qalereyasında təşkil olunan açılış mərasimində vilayətin Baş Mədəniyyət İdarəsinin rəisi Marina Semyonova və qonaq rəssamlar çıxış ediblər.

Əvvəlcə TÜRKSOY-un baş katibi Sultan Raevin təbrik məktubu oxunub, sonra digər iştirakçılar da yubiley münasibətilə xoş arzularını dilə gətirib, tədbirin əhəmiyyətini qeyd ediblər.

davamı səh. 2-də

## Laçın şəhəri yenidən doğuluşunun ikinci ildönümünü qeyd edəcək

2023-cü ildə Azərbaycanın əlamətdar günlər təqviminə yeni bir gün, 26 avqust – "Laçın Şəhəri Günü" daxil oldu.



İlk dəfə ötən il qeyd edilən bu gün Prezident İlham Əliyevin "Azərbaycan Respublikasının işğaldan azad edilmiş əraziləri üzrə şəhər günlərinin təsis edilməsi haqqında" 31 iyul 2023-cü il tarixli sərəncamı ilə təsis olunub.

Sərəncam Vətən müharibəsində əldə olunmuş tarixi Qələbəni əbədiləşdirmək və işğaldan azad edilmiş şəhərlərin günlərini təsis etmək məqsədilə imzalanıb. Bu şəhərlər sırasında otuz ilə yaxın davam edən işğaldan sonra doğma Vətənin qoynuna qayıdan Laçın da var.

Avqustun 26-da "Laçın Şəhəri Günü" ikinci dəfə təntənə ilə qeyd olunacaq.

davamı səh. 2-də

Azərbaycanda ilk uşaq teleserialı çəkilir



səh. 2



"Mədəniyyət fəalı" – COP29-la bağlı bilik yarışı

səh. 4




Qocaman teatrımızın gənc məskəni

səh. 6

№62 (2127)
23 avqust 2024
www.medeniyyet.az

# Daşkənddə Azərbaycan sərgisi

əvvəli səh. 1-də

Burada "Made in Azerbaijan" brendi altında istehsal olunan qida məhsulları, o cümlədən spirtli və spirtsiz içkilər, konservlər, kənd təsərrüfatı və qənnadı məhsulları, eləcə də tikinti materialları və digər məhsullar nümayiş olunur.

Sərgidə ənənəvi tekstil sahəsinə xüsusi yer ayrılıb. Burada Azərbaycanın müxtəlif xalçaçılıq məktəblərinə məxsus əl işləri yer alır, ziyarətçilərə ənənəvi xalçaçılıq sənəti haqqında məlumat verilir.

***



Daşkənddə Azərbaycan-Özbəkistan İnvestisiya Şirkətinin ofisinin açılışı da olub. İqtisadiyyat naziri Mikayıl Cabbarov, Özbəkistanın investisiya, sənaye və ticarət naziri Ləziz Kudratov, həmçinin iki ölkənin müvafiq qurumlarının nümayəndələri ofisdə yaradılan şəraitlə tanış olublar.

Azərbaycan-Özbəkistan İnvestisiya Şirkəti 2023-cü ilin dekabrında Özbəkistanda "Azerbaijan Uzbek İnvestment" MMC Birgə Müəssisəsi (AUİC) kimi qeydiyyatdan keçib.

Qurumun missiyası iqtisadiyyatın müxtəlif sahələri üzrə fəaliyyət göstərən şirkətlərin kapitalında 49 faizədək paya sahib olmaqla biznesin genişləndirilməsi və gələcək inkişafı üçün maliyyələşməni təmin etməkdir. Ofisi Daşkənd şəhərindəki "Trilliant Tower 1" Biznes Mərkəzində yerləşən investisiya şirkətinin nizamnamə kapitalı 500 milyon dollardır.

# Laçın şəhəri yenidən doğuluşunun ikinci ildönümünü qeyd edəcək

əvvəli səh. 1-də

Xatırladaq ki, iki il əvvəl – 2022-ci ilin 26 avqustunda Laçın şəhəri Azərbaycan dövlətinin tam nəzarətinə qayıdıb. Azərbaycan Ordusunun 44 günlük Vətən müharibəsində qazandığı Zəfərin nəticəsi olaraq və 2020-ci il 10 noyabr tarixli Bəyanatın (Azərbaycan, Ermənistan, Rusiya) müvafiq bəndinə əsasən, Laçın rayonu 2020-ci ilin 1 dekabrında Ermənistanın işğalçı qüvvələrindən azad edilmişdi. Lakin həmin sənədin müvafiq müddəasına görə, Laçın şəhəri və buradan keçən avtomobil yolu (Laçın-Xankəndi) Rusiya sülhməramlı kontingentinin nəzarətində idi. İşğaldan sonra Laçın şəhərində, eləcə də Zabux və Sus kəndlərində qanunsuz məskən salan ermənilərin də bir qismi hələ burada qalmaqda idi.



Üçtərəfli Bəyanatın müvafiq bəndinə uyğun olaraq, Azərbaycan tərəfi Laçın şəhərindən keçən avtomobil yoluna alternativ yolun inşasına başladı və 2022-ci ilin yayında yol hazır oldu. Bundan sonra Rusiya sülhməramlı kontingentinin müvəqqəti yerləşdiyi dəhliz – Laçın şəhəri, eləcə də Zabux və Sus kəndləri Azərbaycanın tam nəzarətinə keçdi.

"Bu gün, avqustun 26-da biz – azərbaycanlılar Laçın şəhərinə qayıtmışıq. Azərbaycan Ordusu Laçın şəhərinə yerləşdi. Zabux və Sus kəndləri nəzarətə götürüldü. Bütün laçınlıları və Azərbaycan xalqını bu münasibətlə təbrik edirəm. Yaşasın Laçın! Yaşasın Azərbaycan!" – deyə Prezident İlham Əliyev bununla bağlı rəsmi sosial şəbəkə səhifəsində paylaşım etmişdi.

2022-ci il sentyabrın 21-də Laçın şəhərinə gələn dövlətimizin başçısı orada Azərbaycanın bayrağını ucaltdı. "Bu, tarixi hadisədir. Laçın şəhərinin azad edilməsi həmişə tarixdə qalacaq. Bu gün Laçın şəhərində, şəhərin mərkəzində, mərkəzi küçədə Azərbaycan bayrağını qaldırmışam. Bu bayraq burada əbədi dalğalanacaqdır", – deyə Prezident İlham Əliyev bəyan etmişdi.

Vətən müharibəsində işğaldan azad olunan bütün yurd yerlərimiz kimi, Şərqi Zəngəzurun dilbər guşələrindən olan Laçın da indi özünün yeni növrağını yaşayır. Otuz il ərzində düşmənin dağıdıb talandığı bu qədim elimiz yenidən qurulur, laçınlılar uzun ayrılıqdan sonra doğma yurdlarına qayıdırlar. 2023-cü ilin 28 mayında Laçın şəhərinə, 25 avqustunda isə yenidən qurulan Zabux kəndinə sakinlərin qayıdışı başlandı.

Avqustun 26-da Laçın rayonuna gələn Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Zabux kəndində sakinlərlə görüşmüş, sonra "Laçın Şəhəri Günü" tədbirində iştirak etmişdilər.

"Bu gün biz Şuşada, Laçında toy-bayram edirik. Öz doğma torpağımızda qürurla yaşayırıq. Hər bir azərbaycanlı qürur hissi ilə yaşayır ki, biz tarixi Zəfər çalaraq bütün dünyaya Azərbaycan xalqının gücünü, iradəsini göstərdik", – deyə Prezident İlham Əliyev tədbirdə demişdi.

Qeyd edək ki, Heydər Əliyev Fondunun dəstəyi, Mədəniyyət Nazirliyi və Azərbaycan Respublikası Prezidentinin Laçın rayonunda xüsusi nümayəndəliyinin təşkilatçılığı ilə 26-27 avqust tarixlərində Laçında keçirilən tədbirlərə doğma yurda qayıdan laçınlılarla yanaşı, mədəniyyət və diplomatik korpusun nümayəndələri və digər qonaqlar qatılmışdı.

Laçın şəhərinin yenidən doğuluşunun ikinci ildönümünə də geniş bayram proqramı tərtib edilib. Üstəlik, budəfəki "Laçın Şəhəri Günü" Azərbaycan Respublikasının bütün ərazilərində suverenliyinin tam bərqərar edilməsindən sonra, 2023-cü ilin 19-20 sentyabrındakı antiterror əməliyyatının nəticəsi olaraq külli Qarabağda bayrağımızın dalğalandığı bir vaxtda daha böyük bir anlamla qeyd edilir.

# Möhkəm təməl üzərində tərəfdaşlığın yeni səhifəsi

əvvəli səh. 1-də

Avqustun 22-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva Daşkənddəki Heydər Əliyev Meydanında Ümummilli Liderin barelyefi önünə gül dəstələri qoyublar.

Daşkəndin Mirabad rayonunda yaradılan Heydər Əliyev Meydanının və Ulu Öndərin burada ucaldılmış barelyefinin 2022-ci il iyunun 21-də açılışı olub. Ərazisi tamamilə yenidən qurulan meydanda yaşıllıq salınıb, sakinlərin istirahəti üçün hər cür şərait yaradılıb.

Həmin il Özbəkistanda dövlət səfərində olan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyev Ulu Öndərin barelyefinin açılışında iştirak ediblər.

***

Həmin gün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva Daşkənddə Müstəqillik abidəsini ziyarət ediblər.

Dövlətimizin başçısının şərəfinə fəxri qarovul dəstəsi düzülüb. Prezident İlham Əliyev abidənin önünə əklil qoyub.

Məlumat verilib ki, Özbəkistanın müstəqilliyinin 30 illiyi münasibətilə ucaldılan abidə özbək xalqının üç min illik tarixini əks etdirir. Yeni abidə paytaxt yaxınlığında yerləşən, ölkənin müstəqilliyinin ildönümünə həsr olunan "Yangi Uzbekiston" ("Yeni Özbəkistan") kompleksinin mərkəzində yerləşir. Altmış metr hündürlüyündə abidə görkəmli şəxsiyyətlərin həyat və fəaliyyəti ilə əlamətdar olan dövrü əks etdirir.

Abidənin üzərində Özbəkistan tarixində qədim vaxtlardan müasir dövrədək baş verən mühüm hadisələr təsvir edilib. Kompleksdə əsasən sərkərdə və döyüşçülərin, alim və mütəfəkkirlərin, maarifçilərin obrazları əks olunub. Müstəqillik abidəsini sülhü, azadlığı, xeyirxahlığı və xoşbəxtliyi tərənnüm edən, qanadları geniş açılmış Humay quşunun obrazı tamamlayır.



Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva burada xatirə şəkli çəkdiriblər.

***

Prezident İlham Əliyevin Özbəkistan Respublikasına dövlət səfəri avqustun 23-də davam edəcək.

## Azərbaycan və Özbəkistanın iki şəhəri qardaşlaşıb

Avqustun 22-də Daşkənddə Özbəkistan – Azərbaycan biznes forumu işə başlayıb. Forum Azərbaycan Prezidentinin Özbəkistana dövlətinə rəsmi səfəri çərçivəsində təşkil edilib.

Forumda Azərbaycanın iqtisadiyyat naziri Mikayıl Cabbarov və Özbəkistanın investisiyalar, sənaye və ticarət naziri Ləziz Kudratov çıxış ediblər.

Qeyd edilib ki, forum iki ölkə əməkdaşlığının şaxələnməsi baxımından faydalı platformadır.

İki ölkə arasında 2024–2025-ci illər üçün ticarət-iqtisadi və investisiya əməkdaşlığının genişləndirilməsinə dair Yol xəritəsi çərçivəsində kənd təsərrüfatı, turizm, tikinti, əczaçılıq və avtomobil sənayesi kimi sektorlarda birgə fəaliyyət müzakirə edilib.

Biznes forumda həmçinin energetika, tehsil, logistika, tikinti sahələri üzrə işbirliyi, Bakı və Daşkənd arasında əməkdaşlığın genişləndirilməsi, eyni zamanda Quba və Cizak, Beyləqan və Şəhrisəbz şəhərləri arasında qardaşlaşma əlaqələrinin qurulması ilə bağlı imzalanmış sənədlərin mübadiləsi olub.

# "Qaqauz rəngləri – 2024"

## "TÜRKSOY-un rəssamlar görüşü" Qaqauz Yerinin 30 illiyinə həsr olunub

əvvəli səh. 1-də

Bildirilib ki, rəssamlar görüşü çərçivəsində fırça ustaları Qaqauz Yerinin müxtəlif bölgələrini gəzərək qardaş xalqın həyatını kətan üzərində əks etdirmək imkanı qazanacaqlar. Yekunda ərsəyə gəlmiş rəsmlərin sərgisi təşkil olunacaq.

Qeyd edək ki, qaqauzların əksəriyyəti 1940-cı ildə yaradılan Moldova Respublikasının cənub sərhədlərinə daxil olan mərkəzi Bucağın (Moldova Respublikasının bir hissəsi olan Qaqauz Yeri Muxtar Vilayəti bu gün də xalq arasında və coğrafi vahidlərdə Bucaq adlanır) şimal hissəsində yaşayırlar.

XI əsrdə Balkanlara köç edən qaqauzlar pravoslav xristianlığını qəbul edib, daha sonra Osmanlı hakimiyyəti altında yaşayıblar. Osmanlı zamanında Rumıniyaya bağlı olan indiki Qaqauz Yeri İkinci Dünya savaşı zamanı Sovet İttifaqının (o vaxtkı Moldova SSR) tərkibinə qatılıb. SSRİ-nin dağılması və Moldova Respublikası müstəqilliyini bərpa edəndən üç il sonra, 1994-cü il dekabrın 23-də soydaşlarımız Qaqauz Yeri Muxtar Vilayətini qurmağa nail olublar.



Qaqauziyada əhalinin sayı 160 mindən çoxdur. Onların əksəriyyəti (82%) qaqauzlardır. Qalan qismini bolqarlar, moldavanlar, ruslar, ukraynalılar və digər xalqlar təşkil edir. Qaqauzlar muxtar bölgənin 26 kəndində və Komrat, Çadır-Lunqa, Vulkaneş rayonlarında kompakt olaraq, Bessarabka rayonunda digər xalqlarla qarışıq yaşayırlar.

Son illərdə Qaqauz Yerinin Türk dünyasına inteqrasiyası ilə bağlı əhəmiyyətli addımlar atılıb. Qaqauz Yeri TÜRKSOY-da müşahidəçi üzvlük statusuna malikdir.

# Finlandiyalı qonaqlara Böyük Qayıdış barədə məlumat verilib

Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsində finlandiyalı qonaqlarla görüş keçirilib.

Qurumdan bildirilib ki, Dövlət Komitəsinin sədri Rövşən Rzayev qonaqlara ölkəmizdə qaçqınlar və məcburi köçkünlərlə iş sahəsində həyata keçirilən dövlət siyasəti, erməni işğalı nəticəsində doğma torpaqlarından didərgin düşən soydaşlarımızın üzləşdikləri çətinliklər, onların problemlərinin həlli istiqamətində Azərbaycan hökumətinin gördüyü tədbirlər, həmçinin Vətən müharibəsindən sonra yaranmış vəziyyət, işğaldan azad olunmuş ərazilərə qayıdışın gedişi və perspektivləri barədə məlumat verib.

Prezident İlham Əliyevin rəhbərliyi ilə işğaldan azad edilmiş ərazilərdə böyük bərpa-quruculuq işlərinin aparıldığı, məcburi köçkünlərin könüllü, təhlükəsiz və ləyaqətlə öz doğma yurdlarına qayıdışının başlandığı bildirilib. Birinci vitse-prezident Mehriban xanım Əliyevanın qaçqınlar və məcburi köçkünlərlə bağlı bütün məsələlərə xüsusi həssaslıqla yanaşdığı, onların problemlərinin həllinə daim dəstək göstərdiyi qeyd edilib.



Böyük Qayıdışa dair I Dövlət Proqramının uğurla icra olunduğu, işğaldan azad edilmiş ərazilərdə bərpa edilən və yeni salınan yaşayış məntəqələrinə indiyədək 8 min nəfərin köçürüldüyü diqqətə çatdırılıb. Həmin ərazilərdə işğal dövründə ermənilərin yerləşdirdiyi mina və partlamamış hərbi sursatlarla bağlı təhlükənin qayıdışa ciddi manеə olduğu vurğulanıb.

Helsinki Universitetinin professoru Jan Erik Enestam ölkəmizdə ikinci dəfə qonaq olduğunu, ilk gəldiyi zamanla – 1980-ci illərlə müqayisədə əsaslı dəyişikliklərlə qarşılaşdığını, ölkəmizdəki inkişafın və tərəqqinin bütövlükdə nümayəndə heyətini təəccübləndirdiyini deyib.

Qeyd edək ki, Diaspora İş üzrə Dövlət Komitəsinin dəvəti, Finlandiya-Azərbaycan Dostluq Cəmiyyətinin təşkilatçılığı və dəstəyi ilə ölkəmizə səfərə gəlmiş nümayəndə heyətinə Finlandiya parlamentinin üzvü Mikko Polvinen, Aleksanteri İnstitutunda Finlandiya, Rusiya və Şərqi Avropa Araşdırmaları Mərkəzinin direktoru Markku Kansqapuro, "Hymy" jurnalının redaktor müavini Antero Eerola və başqaları daxildir.

# Ölkəmizdə ilk uşaq teleserialı çəkilir

Elm və Təhsil Nazirliyi ilə İctimai Televiziya və Radio Yayımları Şirkətinin birgə layihəsi əsasında "Mən, Lalə, bir də Şerlok Holms" adlı teleserial çəkilir. Çəkilişlər əsasən Balakən rayonunda aparılır.

Serialın əsas qəhrəmanı 7-ci sinif şagirdi Muraddır. Zəngin fantaziyaya malik Murad növbəti dəfə yay tətilinə çıxıb və istəməsə belə, valideynləri işdə olduğu üçün bütün yayı nənə və babasının yanında – kənddə keçirəcək. Murad kənddə həmyaşıdı olan Lalə və digər kənd uşaqları ilə dostlaşır. Lalə ona kənd həyatının incəliklərini öyrədir, Murad isə Laləni şəhərdən gətirdiyi qacetlər və oxuduğu kitablardan öyrəndiyi maraqlı faktlarla təəccübləndirməyə çalışır.

Muradın babası Oqtay təqaüddə olan polis polkovnikidir. Nənəsi Almaz xanım isə keçmiş ədəbiyyat müəllimidir və bədii ədəbiyyat nümunələri ilə zəngin böyük kitabxanası var. Babasıgildə qaldığı müddət ərzində Murad da kitablara maraq göstərir. Birbir o kitabları oxumağa başlayır. Murad hər seriyada bir kitab oxuyur və kitabın qəhrəmanını xəyalında canlandırır.

On iki hissədən ibarət teleserialda Şerlok Holmsu Əməkdar artist Rasim Cəfər oynayır. Teleserialda Azərbaycanın "Avroviziya–2011" təmsilçisi müğənni Eldar Qasımov da rol alıb.



Serialın ideya müəllifi və ssenaristi Tural Sevdimalı və Vüqar Hüseynovdur. Baş prodüser Amiran Babayev əmindir ki, balacalar bu teleserialdan motivasiya götürərək daha çox kitab oxumağa, daha çox savadlı olmağa səy göstərəcəklər.

# Türkdilli region və dövlətləri birləşdirən yayım platformasının yaradılması

## Mədəniyyət Nazirliyində layihəyə cəlb olunan mütəxəssislərlə müzakirə aparılıb

Avqustun 21-də Mədəniyyət Nazirliyində türkdilli region və dövlətləri birləşdirən yayım platformasının yaradılması ilə bağlı müzakirə aparılıb.





Nazir müavini Səadət Yusifovanın iştirakı ilə keçirilən görüşdə bildirilib ki, Azərbaycan mədəniyyətinin təbliği çərçivəsində yaradıcılıq sahələrinin inkişafının dəstəklənməsi, o cümlədən ölkəmizin kino potensialının təbliğ olunması, yerli kino sənayesinin inkişafına xarici mütəxəssislərin cəlb edilməsi istiqamətində müvafiq tədbirlərin həyata keçirilməsinə ehtiyac duyulur.

Yerli kino sənayesinin inkişafı dublyaj infrastrukturunun dəstəklənməsini, yeni iş yerlərinin açılmasını və müasir rəqəmsal məkanda Azərbaycan dilinin dəstəklənməsi üçün əsas prioritet olan bu seqmentdə biznesin stimullaşdırılmasını nəzərdə tutur. Bu məqsədlər üçün "Yaradıcı Azərbaycan" proqramı çərçivəsində xüsusi tədbirlərin həyata keçirilməsi planlaşdırılır.

Bu ehtiyac eyni zamanda Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 6 iyun tarixli 119 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi haqqında Əsasnamə"sində və "Azərbaycan Respublikasının 2022–2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"nın Tədbirlər Planının müvafiq bəndində də əksini tapıb. Həmin bəndin icrası üzrə mədəniyyət və yaradıcı sənayelər (MYS) sahəsində bazar iştirakçılarının fəaliyyətinin dəstəklənməsi, o cümlədən istehsalat bazasının təkmilləşdirilməsi və sahəvi klasterləşmənin təşviqi prioritet məsələdir.

Qeyd olunub ki, bu fəaliyyət istiqamətində türkdilli region və dövlətləri birləşdirən yayım platformasının qurulması ilə bağlı araşdırma aparılır və müvafiq iş planı hazırlanır. Platformanın təkmilləşdirilməsi və yaradılma prosesinin sürətləndirilməsi məqsədilə layihəyə mütəxəssis olaraq "BBC-Maestro" layihəsinin strateji və biznes üzrə məsləhətçisi Nina Larıçeva və "ATA-Association of Turkic Animation" təşkilatının sədri Oktay Yusibov da cəlb edilib.

Vurğulanıb ki, aylıq və ya illik abunə modelinə əsaslanan platformanın daxilində yerli və beynəlxalq məzmunları (dublyaj) əhatə etməsi planlaşdırılır. Həmçinin platformada tamaşaçılara yüksəkkeyfiyyətli, mədəni rezonans doğuran proqramların təqdim edilməsi nəzərdə tutulur.

# Rusiya teatrı Bakıya gəlir – iki gün "Evlənmə" olacaq

Azərbaycan Dövlət Akademik Milli Dram Teatrının ötən ildən sıx əlaqələr qurduğu Sankt-Peterburqun Aleksandrinski Teatrı ilə əməkdaşlığı uğurla davam edir. 19-20 sentyabr tarixlərində Rusiya teatrı Bakıya qastrola gələcək.

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin və Rusiya Federasiyası Mədəniyyət Nazirliyinin dəstəyi ilə reallaşan layihə çərçivəsində qonaq truppa Akademik Milli Dram Teatrının səhnəsində N.Qoqolun "Evlənmə" əsəri əsasında eyniadlı tamaşanı təqdim edəcək. Səhnə əsərinin quruluş müəllifi Rusiyanın məşhur rejissoru Xalq artisti Valeri Fokindir.

Məlumat üçün deyək ki, Aleksandrinski Teatrında "Evlənmə" tamaşasının premyerası 2008-ci ildə, rus ədəbiyyatının klassiki Nikolay Vasilyeviç Qoqolun 200 illik yubileyi ərəfəsində olub. Tamaşa həmin mövsümdə iki nominasiyada – "Ən yaxşı rejissor işi" və "Ən yaxşı rəssam işi" üzrə Rusiya Milli Teatr Mükafatı – "Qızıl maska"nın laureatı olub. Bu, Rusiya teatr incəsənətinin incəsənət sahəsində ən nüfuzlu mükafatıdır.

Onu da qeyd edək ki, Akademik Milli Dram Teatrının beynəlxalq əməkdaşlıq planları genişdir. Sənət ocağı qarşılıqlı səfərlərin təşkili, müştərək tamaşa layihələri ilə bağlı Belarus və Serbiya teatrları ilə danışıqlar aparır.




Yaxın zamanda hər iki ölkənin milli teatrları ilə memorandum imzalanacaq.

# Azərbaycan UNESCO-nun Qlobal Geoparklar Şəbəkəsinə qoşulmaq niyyətindədir

## Xəzərdəki vulkanik mənşəli adalara tur təşkil edilib



UNESCO ilə əməkdaşlıq çərçivəsində Azərbaycanda geoparkların yaradılması və Qlobal Geoparklar Şəbəkəsinə qoşulmağa dair fəaliyyət planı həyata keçirilir.

Plana uyğun olaraq, yaradılması nəzərdə tutulan geoparka daxil olan palçıq vulkanlarına gəmi ilə infotur təşkil olunub. Tədbirdə dövlət qurumlarının, qeyri-hökumət təşkilatlarının nümayəndələri və mütəxəssislərdən ibarət qruplar iştirak edib.

Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Mətbuat xidmətindən verilən məlumata görə, tur iştirakçıları Xəzərin Bakı arxipelaqında yerləşən vulkanik mənşəli Xərə, Zirə, Qarasu, Səngi-Muğan, Zənbil adalarına ekskursiya edərək bu ərazilərin ekoturizm potensialını qiymətləndiriblər. Xüsusi mühafizə edilən təbiət ərazilərindən olan geopark statuslu məkanlar yaxın gələcəkdə turizmin bir qolu olan geoturizm üçün yeni imkanlar açacaq.

Qeyd edək ki, Azərbaycanda palçıq vulkanlarının bazasında geopark şəbəkəsinin yaradılması işləri yekunlaşma mərhələsindədir.

UNESCO-nun geoparkların yaradılmasına dəstəklə bağlı proqramı 2002-ci ildən fəaliyyət göstərir. Hazırda UNESCO-nun Qlobal Geoparklar Şəbəkəsinə 48 ölkədən 213 park daxildir.

# Müstəmləkəçilikdən qurtulmaq istəyirlər

## Bonayre adasının müqəddəratını təyinetmə yolu Bakıdan keçir

Avqustun 22-də paytaxtımızda "Bonayre adasının Bakıdan keçən BMT Baş Assambleyasındakı öz müqəddəratını təyinetmə yolu" mövzusunda beynəlxalq konfrans keçirilib.



Bakı Təşəbbüs Qrupu və Bonayre İnsan Hüquqları və Dəyişiklik naminə Hərəkatının birgə təşkilatçılığı ilə baş tutan tədbir Niderland Krallığının müstəmləkəçiliyi altında olan Bonayre adasına (Karib dənizi, Cənubi Amerika materikindən (Venesuela sahili) 80 kilometr məsafədə, ərazisi 288 kvadrat kilometr) həsr edilib.

Konfransda kolonializmə qarşı mübarizə aparan və azad olmağa çalışan Bonayre xalqının təmsilçiləri, habelə Beliz, Sent-Vinsent və Qrenadin, Surinam, Sent Lüsiya, Böyük Britaniya, Meksika, Niderland və başqa ölkələrin nümayəndələri, BMT və digər beynəlxalq təşkilatların rəsmiləri, hüquq müdafiəçiləri, dekolonizasiya üzrə ekspertlər iştirak ediblər.

Tədbir iştirakçıları Bonayre xalqının müstəmləkəçilikdən azad olmaq uğrunda apardığı mübarizə, habelə problemin aidiyyəti beynəlxalq təşkilatların gündəliyinə çıxarılması ilə bağlı müzakirələr aparıblar.

Konfransın təşkilində məqsəd Bonayre adasının BMT-nin dekolonizasiya edilməli olan ərazilər siyahısına yenidən salınması üçün bir sıra dövlətlər tərəfindən BMT Baş Assambleyasına təqdim edəcəyi qətnamə layihəsi ilə bağlı beynəlxalq ictimaiyyətin dəstəyinin əldə edilməsidir.

Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin (BMTM) şöbə müdiri Cavid Vəliyev çıxışında diqqətə çatdırıb ki, 2015-ci il referendumunun nəticələri Bonayre xalqına öz müqəddəratını təyin etmək hüququ verir.

"Bizim missiyamız üçün vacib olan amil insanların öz müqəddəratını təyin etmək, mədəni kimliyini qorumaq və etik inkişaf hüquqlarıdır. Lakin bu hüquqlar ayrılıqda tam həyata keçirilə bilməz. Biz səsimizi gücləndirmək, eyni zamanda, ədalətin, sadəcə, ideal deyil, hamı üçün reallıq olmasını təmin etmək üçün qlobal ictimaiyyətin dəstəyinə və anlayışına inanırıq", – deyə Bonayre İnsan Hüquqları Təşkilatının prezidenti Davika Bissessar söyləyib.

Konfransın yekunlarına dair bəyannamə qəbul edilib.

Bəyannaməni Bakı Təşəbbüs Qrupunun icraçı direktoru Abbas Abbasov oxuyub.

Sənəddə bildirilir ki, müstəmləkə şəraitində mövcudluğunu davam etdirən Bonayre dövlətinin və xalqının bütün hüquq və azadlıqları BMT Nizamnaməsinin tələblərinə uyğun təmin edilməli, beynəlxalq ictimaiyyət Bonayre ərazisində yaşayanların problemlərinə diqqət yetirməlidir.

Bu ilin oktyabrında Bonayre rəhbərliyi adanın "G24" layihəsinə əlavə olunması üçün BMT-yə qətnamə layihəsi təqdim edəcək.

Qeyd edək ki, Bakı Təşəbbüs Qrupu Azərbaycan Respublikasının sədrlik etdiyi Qoşulmama Hərəkatının Əlaqələndirmə Bürosunun nazirlər toplantısı çərçivəsində 2023-cü il iyulun 6-da Bakıda "Müstəmləkəçiliyin tamamilə aradan qaldırılmasına doğru" adlı konfransda yaradılıb. Qrup XXI əsrdə dünyanın müxtəlif bölgələrində hələ də müstəmləkəçiliyin əziyyət çəkən xalqların azadlıq uğrunda apardıqları mübarizəyə dəstək verir.

# Dünya Köçəri Oyunları mədəni irsin nümayişi üçün də mühüm imkandır

Xəbər verdiyimiz kimi, V Dünya Köçəri Oyunları bu il sentyabrın 8-dən 13-dək Qazaxıstanın paytaxtı Astanada keçiriləcək.



Qazaxıstanın turizm və idman naziri Yermek Marjikpayev AZƏRTAC-ın müxbirinə müsahibəsində V Dünya Köçəri Oyunlarına hazırlıq, tədbirin ölkə üçün əhəmiyyəti, idmanın və xalqlar arasında mədəni mübadilənin inkişafına rolu ilə bağlı fikirlərini bölüşüb.

Nazir bildirib ki, Dünya Köçəri Oyunları türk mənşəli xalqları bir araya gətirən ənənəvi idman növləri üzrə yarışmaq, eləcə də mədəni kimlikləri nümayiş etdirmək üçün unikal beynəlxalq tədbirdir. Qazaxıstanın ev sahibi edəcəyi budəfəki Oyunlarda idmançılar, məşqçilər və mədəniyyət heyətləri də daxil olmaqla minlərlə nümayəndənin iştirakı gözlənilir. İştirakçılar arasında 80-dən çox ölkənin, o cümlədən Azərbaycanın təmsilçiləri olacaq.

Qazaxstan naziri Dünya Köçəri Oyunlarının Türk Dövlətləri Təşkilatı (TDT) ilə müştərək əməkdaşlığa da əlavə zəmin yaradacağını deyib: "Oyunlarda iştirak etməklə TDT ölkələri milli mədəniyyətlərinin qorunub saxlanılmasına və inkişafına sadiq olduqlarını nümayiş etdirirlər ki, bu da onların mədəni köklərinə hörmət edən və dəstəkləyən dövlətlər kimi beynəlxalq arenada imicini gücləndirir. O cümlədən Azərbaycan üçün Oyunlarda iştirak mədəniyyətinin zənginliyini, ənənəvi güləş, muğam və milli rəqslər kimi elementləri nümayiş etdirmək imkanıdır. Bu, həm də beynəlxalq mədəni əməkdaşlığın inkişafı və digər türk xalqları ilə möhkəm əlaqələrin qurulması istiqamətində mühüm addımdır".

Yermek Marjikpayev Dünya Köçəri Oyunlarının Mərkəzi Asiya regionunda turizmin inkişafına təsirini də yüksək qiymətləndirib: "Oyunların kütləvi informasiya vasitələrində işıqlandırılması sayəsində bölgəyə maraq xeyli artır ki, bu da köçəri xalqların adət-ənənələri ilə tanış olmaq və nadir mədəni tədbirlərdə iştirak etmək istəyən turistlərin axınına töhfə verir. Keçirilən mədəni tədbirlər – ənənəvi sənətkarlıq üzrə ustad dərsləri, eləcə də köçəri mədəniyyəti ilə bağlı tarixi yerlərə ekskursiyalar yeni turizm marşrutları və məhsulları formalaşdırır. Bu, bölgənin turizm təkliflərini genişləndirir və daha çox ziyarətçi cəlb edir. Etnoqrafiya və mədəniyyətlə maraqlanan turistlər üçün ənənəvi idman növləri, xalq rəqsləri, musiqi və əl işlərini canlı izləmək imkanı diqqəti cəlb edir. Dünya Köçəri Oyunları bu turizm növü üçün unikal platforma yaradır ki, bu da onun regionda böyüməsini stimullaşdıracaq".

Qeyd edək ki, Dünya Köçəri Oyunları ilk dəfə Qırğızıstanın təşəbbüsü ilə 2014-cü ildə keçirilib. Qırğızıstan 2016-cı və 2018-ci illərdə (Çolpon-Ata şəhəri) növbəti Dünya Köçəri Oyunlarına ev sahibliyi edib. Sonra Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan bu tədbiri qəbul etməyə hazır olduqlarını bildirib. 2020-ci ilə nəzərdə tutulan, lakin pandemiya səbəbindən ertələnən IV Dünya Köçəri Oyunları 29 sentyabr – 2 oktyabr 2022-ci il tarixlərində Bursanın İznik bölgəsində təşkil olunub. İdman, incəsənət, ənənəvi xalq oyunlarının bir arada təqdim edildiyi bu tədbirlərdə Azərbaycan da geniş heyətlə təmsil olunub.

# Aktau 2025-ci ilə hazırlaşır

TÜRKSOY-un "Türk dünyasının mədəniyyət paytaxtı" proqramı 2012-ci ildən həyata keçirilir. 2024-cü ildə bu missiyanı Türkmənistanın Anev şəhəri daşıyır. Xatırladaq ki, Anev "Türk dünyasının mədəniyyət paytaxtı" estafetini Azərbaycanın Şuşa şəhərindən alıb.



Qarşıdan gələn ildə isə Qazaxıstanın Aktau şəhəri "Türk dünyasının mədəniyyət paytaxtı" adını daşıyacaq. Bu barədə ötən il Şuşada TÜRKSOY Daimi Şurasının 40-cı toplantısında müvafiq qərar qəbul edilib.

Xəzərin o tayındakı Aktau şəhəri artıq indidən hazırlıqlara başlayıb. Yerli mediada şəhər hökumətinə istinadən xəbərlərdə bildirilir ki, "Türk dünyasının mədəniyyət paytaxtı" ili çərçivəsində klassik və xalq musiqisi konsertlərinin, foto və rəsm sərgilərinin, teatr, musiqi və rəqs kollektivlərinin iştirakı ilə festivalların təşkili planlaşdırılır. Həmçinin folklor festivalı, müsabiqələr, rəssam və heykəltəraşların simpoziumları, beynəlxalq elmi-praktik konfranslar nəzərdə tutulur.

Qeyd olunur ki, tədbirlər qonaqları qazax xalqının mədəniyyəti ilə yaxından tanış etmək, eləcə də bölgənin turizm imkanlarının təbliği üçün mühüm fürsət olacaq. Bildirilir ki, 2023-cü ildə Mangistau vilayətini 390 min, o cümlədən Aktau şəhərini 346 min turist ziyarət edib ki, bu rəqəm 2022-ci il ilin müvafiq göstəricilərinə nisbətən 25 faiz çoxdur.

**Gülcahan**

# Qələbəmizə həsr olunan "Borc"

## Bədii filmin çəkilişləri başlanır

Mədəniyyət Nazirliyi və Azərbaycan Respublikasının Kino Agentliyinin (ARKA) ötən il təşkil etdiyi film layihələri müsabiqəsinin qalib işlərinin çəkilişləri həyata keçirilir.




ARKA-nın maliyyə dəstəyi ilə müsabiqənin qaliblərindən olan "Borc" bədii filminin çəkilişləri başlanır.

Bakı Media Mərkəzinin istehsal edəcəyi filmin rejissoru və prodüseri Orman Əliyev, ssenari müəllifi İsmayıl İmandır. 90 dəqiqəlik tammetrajlı bədii film 44 günlük Vətən müharibəsində Qələbəyə həsr olunub.

Bu barədə filmin prodüseri Fariz Əhmədov məlumat verib. O deyib ki, "Borc" filmi Orman Əliyevin rejissor kimi bədii kinoda debütüdür.

Ekran əsəri bir DJ-in koronavirus pandemiyası dövründə başına gələn hadisələrdən bəhs edir. Filmin qəhrəmanı könüllü olaraq həmin ərəfədə baş verən İkinci Qarabağ müharibəsində döyüşməyə yollanır...

Bakı Media Mərkəzi Qələbənin 5-ci ildönümü münasibətilə tamaşaçılara sənədli və bədii filmlər silsiləsi təqdim edəcək. "Borc" bu münasibətlə böyük ekranda göstəriləcək ilk bədii film olacaq. Filmin 2025-ci ilin ilk aylarında təqdim olunması nəzərdə tutulur.

# Mədəniyyət naziri Astarada vətəndaşların müraciətlərini dinləyəcək

Mərkəzi icra hakimiyyəti orqanları və digər idarəetmə qurumlarının rəhbərləri tərəfindən hər ay şəhər və rayonlarda vətəndaşların qəbulu keçirilir.

Mədəniyyət naziri Adil Kərimli avqustun 29-da saat 10:00-da Astara rayon Heydər Əliyev Mərkəzində (Astara şəhəri, İstiqlaliyyət küçəsi 26 b) Astara, Lənkəran, Lerik, Masallı, Cəlilabad və Yardımlı rayonlarından olan vətəndaşları qəbul edəcək.

Qəbula yazılış avqustun 24-dək nazirliyin info@culture.gov.az elektron poçt ünvanı və (012) 493-43-98 telefon nömrəsi vasitəsilə aparılır.

# "Mədəniyyət fəalı" – bilik yarışı

Dağlıq Şirvan Regional Mədəniyyət İdarəsinin tabeliyində fəaliyyət göstərən müəssisələrin komandaları arasında COP29-a həsr olunmuş "Mədəniyyət fəalı" adlı bilik yarışı keçirilib.



İsmayıllı rayon Heydər Əliyev adına parkda gerçəkləşən tədbirdə Ağsu, Qobustan, Şamaxı, İsmayıllı rayonlarının hər birindən iki komanda olmaqla, ümumilikdə 8 komanda iştirak edib. İsmayıllı rayon Heydər Əliyev adına Mədəniyyət Mərkəzinin bədii rəhbəri Teymur Əzizin layihəsi əsasında keçirilən bilik yarışında Qobustanın "Zəfər" komandası I, Şamaxının "Yurd" komandası II, İsmayıllının "Mütaliəçilər" komandası isə III yeri tutub.

Qaliblər regional idarə tərəfindən fəxri fərman və hədiyyələrlə mükafatlandırılıb.

Tədbir çərçivəsində rayon mərkəzində ayrılmış sahədə iştirakçılar tərəfindən müxtəlif ağac tingləri əkilib.

# COP29 könüllüləri üçün Şamaxıda yay festivalı

Azərbaycan Respublikası Gənclər Fondu və "İDEA" İctimai Birliyinin təşkilatçılığı ilə Şamaxıda "Yay fest" gənclər festivalı keçirilib.



COP29 könüllüləri üçün təşkil edilən "COP həftəsi"ndə müxtəlif mövzularda çıxışlar dinlənilib, iqlim dəyişmələrinin Xəzər dənizi regionuna təsirindən söz açılıb. Bildirilib ki, mövcud mənfi proseslərin qarşısının alınması üçün bütün bəşəriyyətin həssaslıq göstərməsi vacibdir. Azərbaycan bu istiqamətdə əhəmiyyətli təşəbbüslərlə çıxış edir. Aparılan müzakirələr zamanı bu ilin noyabr ayında Bakıda keçiriləcək COP29-un böyük önəm daşıması xüsusi qeyd olunub.

İnteraktiv panel müzakirəsində "Yay fest" iştirakçılarının sualları cavablandırılıb, təkliflər müzakirə edilib.

# "YAŞAT" Fondu "Qış düşərgəsi" də təşkil edəcək

"YAŞAT" Fondu yarandığı gündən etibarən bir çox sosial layihələr həyat keçirir. Onlardan biri də Naxçıvanda təşkil olunan "Yay düşərgəsi"dir. Düşərgədə 44 şəhid övladı iştirak edir ki, onlardan 9-u qardaş Türkiyədən dəvət olunub.



"YAŞAT" Fondunun rəhbəri Elvin Hüseynov bu barədə avqustun 22-də Ağbulaq istirahət mərkəzində Azərbaycan və Türkiyədən olan şəhid övladları üçün "Yay düşərgəsi"nin açılış mərasimində jurnalistlərə müsahibəsində söyləyib.

Layihə "YAŞAT" Fondunun təşkilatçılığı, "Azərbaycan Hava Yolları" QSC-nin, Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəliyinin və digər qurumların tərəfdaşlığı, "Nar"ın sponsorluğu ilə həyata keçirilir. Düşərgə dörd gün davam edəcək.

Fondun rəhbəri qeyd edib ki, Ağbulaq istirahət mərkəzi qış turizmi infrastrukturuna da malikdir. Şəhid övladları üçün qarşıdakı aylarda qış fəslində düşərgənin təşkili də planlaşdırılır.

# Böyük Qayıdışa peşə hazırlığı

Qəbələ Dövlət Peşə Təhsil Mərkəzində məcburi köçkünlər üçün təşkil edilmiş növbəti qısamüddətli kursları bitirən və buraxılış-ixtisas imtahanından müvəffəqiyyətlə keçən şəxslərə Elm və Təhsil Nazirliyinin təsdiqlədiyi dövlət nümunəli sertifikatlar verilib.




Agentlikdən bildirilib ki, Qəbələ rayonunda məskunlaşan 84 nəfər məcburi köçkün dayə, arıçı, aşpaz-qənnadıçı, çilingər-santexnik, heyvandarlıq mütəxəssisi, bərbər, əməliyyatçı-mühasib və turizm təşkilatçısı ixtisasları üzrə qısamüddətli kurslara cəlb edilib. İxtisaslar Qəbələ rayonu ərazisindəki məcburi köçkünlər arasında aparılmış sorğulara əsasən müəyyən edilib.

Kursların müddəti 3 ay olub. Təhsil proqramları nəzəri bilik və praktik bacarıqların vəhdəti əsasında tərtib edilib. Kurs iştirakçıları ilk 10 həftədə nəzəri biliklər əldə edərək istehsalat təlimində iştirak edir, sonuncu iki həftədə isə istehsalat təcrübəsinə cəlb olunurlar. Bu kurslar doğma yurdlarına qayıdan əhalinin peşəkar bilik və bacarıqlarını artıraraq onların sosial-iqtisadi vəziyyətini yaxşılaşdırmaq və iş imkanlarını genişləndirmək məqsədi daşıyır.

Təlimləri bitirən 84 nəfərdən 36 nəfəri artıq işlə təmin edilib.

Qeyd edək ki, "Böyük Qayıdışa dair I Dövlət Proqramı" çərçivəsində Qarabağda 8 peşə təhsili müəssisəsinin qurulması, o cümlədən 5000 nəfərin qısamüddətli, 1000 nəfərin isə ixtisasartırma təlimlərinə cəlb olunması planlaşdırılır.

# Yerlərdə mədəni həyat

Ağdaş rayon Mərkəzi Kitabxanası və Ağdaş rayonu üzrə Gənclər və idman sektorunun birgə təşkilatçılığı ilə "Narkomaniyaya yox deyək, gələcəyimizi qoruyaq!" adlı maarifləndirici tədbir keçirilib. Çıxışlarda narkomaniyanın sağlam həyat tərzi üçün təhlükə olduğu, narkotik vasitələrin gəncləri fiziki və psixoloji cəhətdən məhv etdiyi, narkomaniyaya qarşı mübarizənin hər kəsin vətəndaşlıq borcu olduğu vurğulanıb. Mövzu ilə əlaqədar videoçarx nümayiş etdirilib, gənclərin mövzu ilə bağlı sualları cavablandırılıb.





Ağdaş Dövlət Rəsm Qalereyası tərəfindən məktəblilərin yay tətilinin səmərəli keçməsi üçün ustad dərsi təşkil edilib. Dərsdə uşaqlar müxtəlif texnikalarla gipsdən hazırlanmış fiqurları rəngləyiblər.



***

Masallı rayon Mərkəzi Kitabxanası və Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi Masallı regional bölməsinin birgə təşkilatçılığı ilə rayon Gənclər evində "Dinimiz və ətraf mühit" mövzusunda tədbir keçirilib. Ətraf mühiti qorumağın dinindən, dilindən və mənsubiyyətindən asılı olmayaraq hər bir kəsin borcu olduğu vurğulanıb. Bildirilib ki, insanların təbiəti qorumaq və düzgün şəkildə istifadə etmək vərdişlərinin inkişafında maarifləndirmənin əhəmiyyəti böyükdür. Tədbirin sonunda iştirakçıların sualları cavablandırılıb.



Lerik rayon Mərkəzi Kitabxanasının əməkdaşları tərəfindən "Yaşıl dünya naminə həmrəylik ili" ilə bağlı "Təbiəti qorumaq hamının borcudur!" devizi altında iməcilik təşkil edilib. Kitabxananın həyətyanı sahəsində təmizlik işləri aparılıb.

***

Qax rayon Sarıbaş kənd Mədəniyyət evinin təşkilatçılığı ilə "Unutmaz bu oba, bu mahal sizi" adlı tədbir keçirilib. Çıxış edən ziyalılar kəndin tarixindən, rayonun mədəni həyatındakı rolundan danışılıb. Həmçinin ölkəmizdə milli dövlətçiliyin, adət-ənənələrin, milli-mənəvi dəyərlərin ümumbəşəri amillərlə ahəngdar əlaqələndirilməsi istiqamətində görülən işlərdən də bəhs edilib. Tədbirdə Sarıbaş kəndinə həsr olunmuş mahnılar ifa olunub, şeirlər səsləndirilib.

**Hazırladı: N.Məmmədli**

# Qazaxda şəhid hərbi həkimin xatirəsi yad olunub

Qazax rayon M.P.Vaqif və M.V.Vidadinin Xatirə Muzeyinin əməkdaşları 44 günlük Vətən müharibəsində şəhidlik zirvəsinə ucalan tibb xidməti leytenantı Adil Əfəndiyevin doğum günü münasibətilə şəhidin ailəsini ziyarət ediblər.



Görüş zamanı Ordumuzun Vətən müharibəsindəki qəhrəmanlığından, şəhid Adil Əfəndiyevin yaralılara tibbi yardımlarından söz açılıb.

Adil Qədir oğlu Əfəndiyev 1995-ci il avqustun 12-də Qazax rayonunda anadan olub. 2018-ci ildə Azərbaycan Tibb Universitetinin Hərbi tibb fakültəsini bitirib. Təyinatla Naxçıvan Muxtar Respublikasının Culfa rayonundakı N saylı hərbi hissənin qərargah və təchizat bölüyü tibb məntəqəsinin rəisi vəzifəsində xidmət edib.

Tibb xidməti leytenantı Adil Əfəndiyev 2020-ci ilin Vətən müharibəsi zamanı Füzuli, Cəbrayıl və Xocavənd rayonları istiqamətində döyüşlərdə iştirak edib. Oktyabrın 22-də tibbi xidmətini yerinə yetirərkən qəhrəmancasına şəhid olub. Qazax şəhər qəbiristanlığında torpağa tapşırılıb.

Dövlət başçısının müvafiq sərəncamları ilə ölümündən sonra "Vətən uğrunda", "Hərbi xidmətlərə görə", Şuşa, Xocavənd və Füzulinin azad olunmasına görə medalları ilə təltif edilib.

# Beynəlxalq forumda mədəni irsimizə qarşı erməni vandalizmindən danışılıb

19-22 avqust tarixlərində Braziliyada G20 Dinlərarası Forumu (IF20) keçirilib. Forumda Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Ramin Məmmədov da iştirak edib.

Dövlət Komitəsindən bildirilib ki, R.Məmmədov çıxışı zamanı Azərbaycanın dinlərarası və mədəniyyətlərarası harmoniyaya əsaslanan multikulturalizm modeli, eləcə də bu nümunəvi mühitin qorunması istiqamətində həyata keçirilən dövlət siyasəti barədə məlumat verib. Deyib ki, tolerantlıq ənənəsi Azərbaycan kimliyinin ayrılmaz elementinə çevrilib. Bakıda məscidlər, kilsələr və sinaqoqların yan-yana mövcud olması müxtəlif dini icmaların harmoniya şəklində birgəyaşayışının sübutudur.

R.Məmmədov ölkəmizin otuz ilə yaxın Ermənistan tərəfindən işğal altında saxlanılmış ərazilərindəki 67 məsciddən 65-inin vandalizmə məruz qaldığını diqqətə çatdırıb. Qeyd olunub ki, Qarabağda və azərbaycanlıların yüzilliklər ərzində yaşadıqları indiki Ermənistan ərazilərində dini irsimiz məhv edilib. Bütün bunlara baxmayaraq, xalqımız gələcəyə köklənib və regionun tarixində sülh və əməkdaşlığa əsaslanan yeni səhifə açmağa çalışır. Azərbaycan dini və etnik tolerantlığı milli kimliyinin təməl sütunu kimi qorumağa davam edərək işğaldan azad olunmuş ərazilərdə dini-tarixi abidələrin bərpası ilə bağlı mühüm layihələr həyata keçirir.



# İşğaldan azad edilmiş rayonlarda nə qədər iş yeri açılıb?

2024-cü ilin birinci yarısında işğaldan azad edilmiş rayonlarda 840 yeni iş yeri yaradılıb. Dövlət Statistika Komitəsinin müvafiq hesabatında yer alan göstəricilərə görə, bu rayonlarda yeni iş həcmi ötən ilin müvafiq dövrü ilə müqayisədə 42% artıb. 2023-cü ilin ilk altı ayında işğaldan azad edilmiş rayonlarda 593 yeni iş yerləri yaradılmışdı.



Qeyd edək ki, cari ilin yanvar-iyun ayları ərzində ən çox yeni iş yeri Laçın (299) və Şuşada (232) yaradılıb.

Hesabat dövründə azad edilmiş rayonlarda 159 yeni müəssisə və təşkilat, 1726 yeni fərdi sahibkarlıq subyekti dövlət qeydiyyatından keçib. Ötən ilin müvafiq dövrü ilə müqayisədə yeni yaradılmış müəssisə və təşkilatların sayı 90, fərdi sahibkarların sayı isə 488 vahid artıb.

# Gözünüzün işığı – Laçında tibbi aksiya

Səhiyyə Nazirliyi və akademik Zərifə Əliyeva adına Milli Oftalmologiya Mərkəzinin birgə təşəbbüsü ilə avtomobil səyyar klinika avqustun 22-23-də Laçın rayonunda tibbi aksiya keçirir.




Milli Oftalmologiya Mərkəzindən verilən məlumata görə, məqsəd Laçın rayonunda yaşayan sakinlərin görmə ilə bağlı problemlərini müəyyən etmək və aşkar olunan xəstəliklərin müayinə yolu ilə aradan qaldırılmasına kömək göstərməkdir.

Aksiyadakı müayinələr əsasında göz problemləri ilə bağlı ümumi nəticə çıxarılaraq müəyyən olunan xəstəliklər müzakirə edilir. Ciddi problemlərlə üzləşən və çətin əməliyyat tələb olunan pasiyentlərin akademik Zərifə Əliyeva adına Milli Oftalmologiya Mərkəzinə gəlmələrinə şərait yaradılır.

# İctimaiyyətlə əlaqələrdə effektiv kommunikasiya necə qurulmalı?

Naxçıvan Muxtar Respublikasında Prezidentin səlahiyyətli nümayəndəliyinin təşəbbüsü, Naxçıvan Təlim Mərkəzinin təşkilatçılığı və Naxçıvan Şəhər İcra Hakimiyyətinin dəstəyi ilə muxtar respublikanın dövlət orqanlarında çalışan mətbuat işçiləri üçün "İctimaiyyətlə əlaqələrdə effektiv kommunikasiya" mövzusunda təlim keçirilib.

NMR-də Prezidentin səlahiyyətli nümayəndəliyinin əməkdaşı Günay Nəzərova bildirib ki, təlimin məqsədi məlumat hazırlanması və istifadəsi proseslərində savadlılıq anlayışının dövrün tələblərinə uyğunlaşdırılması, media savadlılığı göstəricilərinin yüksəldilməsi, sağlam media mühitinin inkişafı və cəmiyyətdə məlumat təhlükəsizliyinin təmin edilməsidir.

Naxçıvan Təlim Mərkəzi idarə heyətinin sədri Tağı Tağızadə muxtar respublikada sosial-iqtisadi inkişafa dair 2023–2027-ci illər üçün Dövlət Proqramının icrasının təmin edilməsi məqsədilə sözügedən qurumun yaradılmasının əhəmiyyətindən danışıb.

Təlimin ilk hissəsində Medianın İnkişafı Agentliyi Naxçıvan regional idarəsinin rəhbəri Vəfa İsgəndərova böhran vəziyyətində kommunikasiyanın qurulması və kommunikasiya alətlərindən düzgün istifadə və dövlət qurumları arasında koordinasiyanın vacibliyindən danışıb.

"Naxçıvan Muxtar Respublikası Televiziya və Radio Verilişləri" QSC sədrinin müavini İlhamə Novruzova "Mətbuat konfransının, press-relizin, təqdimatın hazırlanması" mövzusunda təqdimat edib.

Yekunda iştirakçılara sertifikatlar verilib.

# “Xəzər mövsümü” – dördüncü mövsüm



Xəbər verdiyimiz kimi, Həştərxanda Rusiyanın “Mədəniyyət” milli layihəsi çərçivəsində ənənəvi “Xəzər mövsümü” Beynəlxalq Klassik İncəsənət Festivalı keçirilir.

Xəzəryanı ölkələr Rusiya, Azərbaycan, Qazaxıstan, İran və Türkmənistanın mədəniyyətini təbliğ edən festivalın açılış konserti avqustun 17-də Həştərxan Kremlinin meydanında olub.

Mərasimdə çıxış edən Həştərxan Vilayətinin mədəniyyət naziri Olqa Prokofyeva diqqətə çatdırıb ki, bu il “Xəzər mövsümü”nün coğrafiyası genişlənib, festivala Özbəkistan və Belarusdan da artistlər qatılıb.

Rusiya Federasiyasının mədəniyyət naziri Olqa Lyubimova videoformatla festival iştirakçılarını təbrik edib. “Böyük beynəlxalq layihə ildən-ilə daha parlaq və maraqlı olur və onun dostluq və qarşılıqlı hörmət şəraitində keçən tədbirləri tamaşaçılara əsl yaradıcılıq təntənəsi verir”, – deyə o vurğulayıb.

Xəzəryanı dövlətlərin simfonik orkestrinin (baş dirijor Mixail Qolikov) müşayiəti ilə keçirilən konsertdə Rusiyanın Əməkdar artisti, Başqırdıstan və Tatarıstan respublikalarının Xalq artisti İldar Abdrazakov, Azərbaycanın Xalq artisti Dinarə Əliyeva, Hamburq Dövlət Operasının solisti, Böyük Teatrın dəvətli solisti Dövlət Nurgəldiyev (Türkmənistan), Qazaxıstanın Əməkdar incəsənət xadimi, Astana Dövlət Opera və Balet Teatrının aparıcı səhnə ustası Talqat Musabayev, İrandan viola ifaçısı, beynəlxalq müsabiqələr laureatı Amin Qafari və başqa məşhur ifaçılar çıxış ediblər.

23-28 avqust tarixlərində Həştərxan Filarmoniyasında Xəzərətrafı dövlətlərdən olan artistlərin solo konsertləri nəzərdə tutulub. Bundan əlavə, festivalın proqramına “Vokal akademiyası”, “Orkestr akademiyası” və “Balet akademiyası”nın açıq dərsləri daxildir.

Onu da qeyd edək ki, Azərbaycanın tanınmış opera müğənnisi Dinarə Əliyeva festivalın açılış konsertindən sonra ustad dərsi verib.

“Xəzər mövsümü” festivalı Rusiya Mədəni-kütləvi Proqramlar üzrə Direktorluğu, Həştərxan Vilayəti Hökuməti və vilayət Mədəniyyət Nazirliyinin dəstəyi, Həştərxan Opera və Balet Teatrı və Həştərxan Filarmoniyasının tərəfdaşlığı ilə təşkil olunur.

Bu il dördüncü dəfə təşkil edilən festival sentyabrın 1-də başa çatacaq.

Uğur sorağında

# Əsər zövqünü oxşayırsa...

Ümummilli lider Heydər Əliyevin 100 illik yubileyi münasibətilə Mədəniyyət Nazirliyi, Elm və Təhsil Nazirliyi və Heydər Əliyev Mərkəzinin birgə təşkilatçılığı ilə ötən il keçirilən Uşaq İncəsənət Festivalı (UİF) müstəqillik dövrünün böyük mədəniyyət layihəsi kimi tarixə yazıldı.

Ölkəmizin hər yerindən minlərlə istedadlı uşaq festival marafonuna qoşularaq qabiliyyət və bacarığını nümayiş etdirmək imkanı qazandı, böyük uğurlara doğru ilk addımlarını atdı. Festivalda uğur qazanmış iştirakçılardan bir çoxu daha da ruhlanaraq sonradan respublika və beynəlxalq əhəmiyyətli müsabiqə və festivallarda da nailiyyətlər əldə etdilər.

Biz də “Uğur sorağında” rubrikamızda həmin istedadları oxucularımıza tanıtmaq qərarına gəldik. İlk qonağımız skripka ifaçısı, beynəlxalq və respublika müsabiqələri laureatı Kənan Bağırovdur.

Kənan Əziz oğlu Bağırov 2008-ci il noyabrın 24-də Bakıda anadan olub. 132-134 saylı təhsil kompleksinin və Bakı Şəhər Mədəniyyət Baş İdarəsinin tabeliyində fəaliyyət göstərən Leopold və Mstislav Rostropoviçlər adına 21 nömrəli onbirillik musiqi məktəbinin 11-ci sinif şagirdidir.

5 yaşından musiqi ilə məşğul olmağa başlayıb. Skripka alətini valideynlərinin məsləhəti ilə seçdiyini deyir: “2017-ci ildən bir sıra yerli və beynəlxalq müsabiqələrdə iştirak etmişəm. Onlardan ən yaddaqalanı ötən il ölkəmizdə keçirilən Uşaq İncəsənət Festivalıdır. Festivalın 2-ci turundan sonra iştirakçılarla birlikdə Laçın şəhərinə yollandıq. Həmin vaxt “Laçın Şəhəri Günü” tədbirləri keçirilirdi. Həkəri çayının sahilində, bulvar ərazisində festivalın yay düşərgəsi təşkil edilmişdi. Düşərgədə Əməkdar müəllim, professor, sənətşünaslıq üzrə fəlsəfə doktoru Hökümə Əliyeva bizlərə ustad dərsləri keçdi. Nəhayət, mən bu müsabiqədə I yerə layiq görüldüm. Laçında olduğum zaman Prezident İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyeva ilə görüşümüzü isə heç zaman unutmayacağam”.



Kənanın UİF-də qazandığı uğur onun üçün düşərli olur. Bundan sonra Almaniyada keçirilən III Beynəlxalq musiqi müsabiqəsi və Türkiyədə təşkil edilən “Bravo” XIII Beynəlxalq onlayn musiqi müsabiqəsində I yeri qazanır.

Bu ilin mart ayında Qazaxıstanın “Xoşbəxt ölkənin uşaqları” İctimai Fondunun Cövdət Hacıyev adına 3 nömrəli onbirillik musiqi məktəbi ilə birgə təşkil etdiyi çoxjanrlı beynəlxalq müsabiqəsində (“Biz xoşbəxt uşaqlarıq”) uğurla iştirak edərək Qran-pri mükafatına layiq görülüb. Kənanın iştirak etdiyi hələlik sonuncu sənət yarışması isə aprel ayında Gürcüstanda keçirilən Yevgeni Mikeladze adına V Beynəlxalq müsabiqədir. Bu müsabiqədə də I yeri qazanıb.

Gələcək planları haqqında danışan Kənanın arzusu Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasında oxumaq, sonra isə təhsilini Almaniyada davam etdirməkdir.

Müəllimi, L. və M.Rostropoviçlər adına məktəbdə simli və nəfəs alətləri şöbəsinin müdiri Gülnarə Seyidova şagirdinin çox istedadlı olduğunu bildirir: “Kənan mənim sinfimdə 2022-ci ildən təhsil alır. Həmçinin təşkil etdiyim ansamblın üzvü olub. O, musiqinin dərinliyinə varma qabiliyyətinə malikdir. Musiqi əsərlərinin texniki cəhətdən mürəkkəbliyi onu heç vaxt çəkindirmir. Əsərin musiqisi onun zövqünü oxşayıbsa, ifa etmək artıq Kənanın əsas məqsədinə çevrilir. Onun ifaçılıq və texniki imkanlarını nəzərə alıb mükəmməl səviyyədə ifa edə biləcəyini təhlil etdikdən sonra həmin əsər üzərində birgə işləməyə başlayırıq”.

Gülnarə müəllimə qeyd edir ki, yetirməsi ölkəmizdə və xaricdə keçirilən bir sıra müsabiqələrdə, həmçinin ümumməktəb konsertlərində uğurla çıxıb edib, ustad dərslərinə qatılıb: “Kənan bu ilin aprelində Almaniyadan gələn tanınmış violin ifaçısı soydaşımız Anar Bramo tərəfindən Müslüm Maqomayev adına Azərbaycan Dövlət Akademik Filarmoniyasının Kamera və Orqan Musiqisi Zalında təşkil etdiyi gənc istedadlar üçün ustad dərsində də iştirak edib. Həmin dərs zamanı Anar Bramo Kənanın çıxışını dinləyib və çox yüksək qiymətləndirib”.

Biz də Kənana xəyalını qurduğu məqsədlərinə çatmasını, musiqi mədəniyyətimizdə seçkin adlardan olmasını arzulayırıq.

**Nurəddin**

# “Bakıda yenə konsert vermək istərdim”

## 90-ların ulduzu Doktor Alban: “Sıfırdan başlamaq həmişə çətindir”

Doktor Alban (Alban Uzoma Nvapa) ötən əsrin 90-cı illərin dünyaca məşhur müğənnisi olub. Nigeriya mənşəli isveçli müğənninin “It’s My Life”, “Sing Hallelujah”, “Look Who’s Talking”, “Born in Africa” və başqa mahnıları İsveçdən çox-çox uzaqlarda geniş yayılmışdı. Müğənni bu gün də musiqi aləmində populyardır, konsertlər verir, müxtəlif festivallara qatılır. O, iyul ayında Bakıda “Sea Breeze Resort”da keçirilən “Dream Fest”in də iştirakçısı olub.

AZƏRTAC-ın əməkdaşı Nərgiz Cəfərli Stokholmda Doktor Albandan müsahibə alıb. O, musiqi karyerasının necə başlamasından, Bakı haqqında təəssüratından danışıb.

*– Alban, salam. Çox şadam və minnətdaram ki, gəncliyimin kumiri Azərbaycanın informasiya agentliyi AZƏRTAC-a müsahibə verməyə razı olub. Sağ olun.*

– Siz də sağ olun.

*– Onda keçək suallara! İlk sualım: Hello Alban! Tell me how you’re doing? (Salam, Alban! Mənə deyin, necəsiniz? (“Hello Africa” mahnısının sözləri – müəllif)*

– Təşəkkür edirəm. Yaxşıyam. (Gülür.)

*– Karolinska İnstitutunda diş həkimi ixtisası üzrə təhsil almısan. Bəs musiqi karyeran necə başladı və necə məşhur sənətçi oldun?*

– Karolinska İnstitutunda oxuyanda pula ehtiyacım var idi, həftə sonları isə DJ işləyirdim. Məhz həmin dövrdə, 1990-cı ildə hər yerdə ildırım kimi guruldamağa başlayan “Hello Africa” mahnısı meydana çıxdı və çıxışlarım belə də davam etdi.

*– Heç diş həkimi işlədinmi?*

– Bəli, bir il.

*– Bu, necə idi?*

– Yaxşı, amma musiqi ilə çalışmaq daha əyləncəlidir.

*– Həkim işləmək üçün darıxmırsan?*

– Xeyr.

*– Albomların milyonlarla tirajla satılıb. Sən hər yerdə görünürdün: televiziya ekranlarında, qəzet və jurnalların üz qabığında. Sonra geniş şəkildə tanınmağa başladın. Bu, həyatda sənə mane oldumu?*

– Xeyr. Baxmayaraq ki, bəzən çətin olurdu. Axı məşhur adam bu və ya digər işi görə bilməz. Amma sən bununla yaşayırsan və sonunda öyrəşirsən.

*– Musiqi karyeran İsveçdə başlayıb. İsveçli olmayan bir insan üçün İsveç musiqi aləmində bunu etmək çətin deyildimi?*

– Biz, ölkəyə yeni gələnlər, bilirik ki, sıfırdan başlamaq həmişə çətindir. Bu məsələdə təcrübəniz olduqda daha asandır. Amma sonda bacardım.

*– Bir müddət işində sakitlik yaranmışdı. Bunun səbəbi nədir və həmin müddətdə nə işlə məşğul idin?*

– Körpə uşaqlarım, iki qızım vardı. İndi biri 19, digəri 16 yaşındadır. Uşaqlar dünyaya gələndə, gərək bir az yavaşlayaq.

*– Keçək Bakı səfərinə. İyul ayında Emin Ağalarov tərəfindən Bakıda keçiriləcək “Dream Fest”ə dəvət olundun. Festivaldan və Azərbaycan ictimaiyyətindən hansı təəssüratlarla ayrıldın?*

– Bakı çox gözəl şəhərdir. Strukturlaşdırılmış və sakitdir. Tamaşaçılar isə fantastikdir. Mən bu şəhəri və onun insanlarını sevdim. Bakıda bəyənmədiyim heç nə yoxdur.



*– Şəhəri gəzməyə, yerli mətbəxin təamlarını dadmağa vaxtın oldumu?*

– Biz daha çox maşınla gedirdik. Yeməklərin Asiya və ərəb mətbəxi ilə ortaq cəhətləri var. Çoxlu qızardılmış ət yedim. Ləzzətli idi.

*– Adının ulduzu “Sea Breeze”də “Walk of Fame” xiyabanında qoyulub. Bununla bağlı təəssüratını bölüşərdin.*

– Oraya gedib bu ulduzu qəbul etmək çox xoş idi. Mükafatın özü evdədir, ofisimdə ona tez-tez baxıram. Ulduzun üzərində “Alban” yazısını görmək çox xoşdur.

*– Yerli ulduzlar da xarici sənətçilərlə birgə səhnədə çıxış etdilər. Onların çıxışı ilə maraqlandınmı və ya gələcəkdə kiminlə əməkdaşlıq etmək istərdin?*

– Fakt budur ki, bir dəfə pərdə arxasına keçəndən sonra, demək olar ki, dərhal səhnəyə çıxdım. Mənim çıxışımdan sonra yağış yağmağa başladı. Beləliklə, konsert mənim ifamla başa çatdı. Çox təəssüf ki, məndən əvvəl çıxış edənləri görmədim.

*– Sonuncu sualım. Bakıya qayıdıb solo konsert vermək istərdin?*

– Bəli. Mütləq! Mən Bakını, Azərbaycanı sevirəm. Oraya təkrar getməliyəm. Bu, asandır. Problem yoxdur.

# “Animafilm” festivalında 18 ölkədən 48 film yarışacaq

Oktyabrın 2-dən 6-dək Mədəniyyət Nazirliyi və Kino Agentliyinin dəstəyi, Azərbaycan Animasiya Assosiasiyasının təşkilatçılığı ilə Bakıda 7-ci “Animafilm” Beynəlxalq Animasiya Festivalı keçiriləcək.

Assosiasiyadan bildirilib ki, bu il festivala 2 beynəlxalq və 2 yerli kateqoriya üzrə 37 ölkədən 196 film daxil olub. Demetrios Poursanidis (Yunanistan), Nitya Ramlogan (ABŞ), Nəzrin Ağamalıyeva, Elşən Cəbrayılzadə, Məsud Alısoy, Vəfa Piriyevanın (Azərbaycan) təmsil olunduğu festivalın seçim komissiyası 18 ölkədən 48 filmi müsabiqə proqramına salıb. Onlardan 12-si yerli, 36-sı isə beynəlxalq kateqoriyalarda yarışacaq.

Müsabiqədə iştirak edəcək filmlər arasında həm bu sahədə öz sözünü demiş peşəkar animatorların, həm də animasiya dünyasına yeni daxil olmuş istedadlı gənclərin filmlərini görmək mümkün olacaq.

Filmləri bilavasitə müsabiqə proqramında qiymətləndirəcək beynəlxalq münsiflər heyətinin üzvləri yaxın zamanda açıqlanacaq.

Qaliblər üçün nəzərdə tutulan mükafatlar: beynəlxalq müsabiqənin “Ən yaxşı qısametrajlı animasiya filmi” (“Grand Prıx”), Uşaqlar üçün ən yaxşı qısametrajlı animasiya filmi”; yerli müsabiqənin “Ən yaxşı Azərbaycan qısametrajlı animasiya filmi”, “Ən yaxşı Azərbaycan tələbə qısametrajlı animasiya filmi”, “Tamaşaçı rəğbəti” mükafatı və “Tərəfdaşların xüsusi mükafatları”.

7-ci “Animafilm”in proqramı və bilet satışı haqqında məlumat sentyabrda elan ediləcək.

# “Şerli Valentin” Bakıya gələcək

Türkiyənin tanınmış aktrisası Sumru Yavrucuk “Şerli Valentin” monotamaşası ilə Bakıda çıxış edəcək.




Tamaşa Azərbaycan Mədəniyyət Nazirliyinin dəstəyi, “Caspian Media Group”un təşkilatçılığı ilə 5-6 oktyabr tarixlərində Azərbaycan Dövlət Akademik Musiqili Teatrında nümayiş olunacaq.

İkipərdəli səhnə əsəri gündəlik qayğıların cansıxıcılığında itib-batan Şerli Valentinin həyat hekayəsidir. O özünü yenidən kəşf edir və həyat yolunda ayaqları üstə möhkəm dayanmağa başlayır...

Tamaşaya Sumru Yavrucuk özü quruluş verib. Türkiyədə teatr sahəsi üzrə bir sıra mükafatların laureatı olan S.Yavrucuk “Yabancı damat”, “Fatmagülün suçu nə?”, “Evlilik haqqında hər şey”, “Şahanə həyatım” kimi seriallarda da yaddaqalan obrazlar canlandırıb.

“Şerli Valentin” (Shirley Valentine) ingilis dramaturqu və bəstəkarı Vilyam Rasselin (William Russell) pyesidir. Əsər əsasında eyniadlı film (1989, rejissor Lewis Gilbert) də çəkilib.

# Musiqili Teatr yeni mövsümə Milli Musiqi Günündə başlayacaq

Azərbaycan Dövlət Akademik Musiqili Teatrı yeni mövsümdə maraqlı layihələrlə teatrsevərlərin görüşünə gələcək.



Mövsümün açılışı ənənəyə uyğun olaraq, 18 sentyabr – Milli Musiqi Günündə reallaşacaq. Həmin gün teatrsevərlərə Üzeyir Hacıbəylinin “O olmasın, bu olsun” (quruluşçu rejissor Xalq artisti Cənnət Səlimova) tamaşası təqdim olunacaq.

Teatrda “Üzeyir Hacıbəyli həftəsi” çərçivəsində həmçinin növbəti üç gündə dahi bəstəkarın “Leyli və Məcnun” (quruluşçu rejissor və libretto müəllifi Samir Qulamov), “Ər və arvad” (quruluşçu rejissor Yusif Əkbərov), “Arşın mal alan” (quruluşçu rejissor Elvin Mirzəyev, bərpaçı rejissor Əhəd Hacıyev) tamaşaları nümayiş olunacaq.

Bundan əlavə, sentyabrın 22-də “Nəğməmə inan” (Polad Bülbüloğlu, Mixail Şerbaçenko; quruluşçu rejissor Cavid İmamverdiyev), 28-də “Qızıl toy” (Oqtay Kazımi, Ramiz Heydər; quruluşçu rejissor Yusif Əkbərov), 29-da “Bəxtiyar” (musiqi: Tofiq Quliyev; səhnələşdirən və quruluşçu rejissor Cavid İmamverdiyev) səhnə əsərləri oynanılacaq.

Teatrda ötən mövsümdə hazırlığına başlanılan tamaşalar üzərində işlər də davam edir.

Bu sırada “Bir qalanın sirri” (Rauf Hacıyev, Məmmədhüseyn Təhmasib; quruluşçu rejissor Elməddin Dadaşov), “Əliqulu evlənir” (Oqtay Rəcəbov, Sabit Rəhman; quruluşçu rejissor İlham Namiq Kamal), “Palata” (Anton Çexov; quruluşçu rejissor Ər-Toğrul Kamalov) və “Killerdən teleqram” (Pərviz Seyidli; quruluşçu rejissor Zaur Əliyev) tamaşaları var.

# Qazax teatrında “Səmirsiz” etiraz olacaq

Qazax Dövlət Dram Teatrı daha bir səhnə əsərini hazırlayıb. “Səmirsiz” monotamaşasına Akademik Rus Dram Teatrından dəvət olunmuş rejissor Abdulla Elşadlı quruluş verib.

Semuel Bekketin “Sözsüz əməl” pyesi əsasında hazırlanan səhnə əsəri (absurd sükut) Mədəniyyət Nazirliyinin bu ilin payızında reallaşacaq Monotamaşalar festivalı üçün nəzərdə tutulub.

Səhnə tərtibatçısı Şəki Dövlət Dram Teatrının baş rəssamı Sahib Əhmədov, butaforçu Qazax Dövlət Dram Teatrının baş rəssamı Sayad Məmmədov, bəstəkar Azər Hacıəsgərli, prodüser Allahverdi Musayevdir.

Cəmiyyətdə baş verən hadisələrə, ətrafdakı haqsızlıqlara sükutla etiraz bildirilən birpərdəli tamaşada teatrın gənc aktyoru Rüfət Əhmədov oynayır.

Zeynal Xəlil – 110

# "Vətənsiz gülmədi gözümdə aləm..."

XX əsr Azərbaycan poeziyasında özünəməxsus dəst-xətti ilə seçilən yazarlar sırasında görkəmli şair, dramaturq, Əməkdar incəsənət xadimi Zeynal Xəlilin də adı hörmətlə çəkilir. Mövzu rəngarəngliyi, yüksək poetik dil və səmimi vətəndaş mövqeyi şairi xarakterizə edən əsas keyfiyyətlər olub. Bu il şairin anadan olmasının 110 illiyidir.

Zeynal Rza oğlu Xəlilov (Zeynal Xəlil) 23 mart 1914-cü ildə Gəncə şəhərində sənətkar ailəsində anadan olub. Yeddi yaşı olanda atası vəfat edir. Zeynal yeddiillik məktəbi bitirdikdə sonra peşə məktəbində oxuyur. Gənc yaşlarından əmək fəaliyyətinə başlayır.

Zeynal hələ məktəb illərindən poeziyaya maraq göstərir. "Yeni kənd" adlı ilk şeirini qələmə alır. O, işləyə-işləyə mütaliədən də qalmır, ədəbi yaddaşını zənginləşdirir, ədəbiyyat aləminin dərinliklərinə enməyə çalışır.

Zeynal Xəlil 1932-ci ildə Azərbaycan Dövlət Pedaqoji İnstitutunun (indiki ADPU) Dil və ədəbiyyat fakültəsinə qəbul olunur. Artıq həyat onun çətin yollarına işıq tutur. Şeirə, sənətə olan həvəsi coşub-daşır. Şeirləri "Gənc işçi", "Ədəbiyyat qəzeti" və digər dövri mətbuat orqanlarında dərc olunur. 1934-cü ildə "Azərnəşr" tərəfindən "İstək" adlı ilk şeirlər kitabı işıq üzü görür və maraqla qarşılanır. İlk kitabı onu yeni-yeni əsərlər yazmağa həvəsləndirir. "Tarac", "Poemalar", "Qılınc" kimi əsərləri oxucuların ixtiyarına verilir. Şairin bir-birinin ardınca işıq üzü görən "Düşüncələr", "Etibar", "Arzular", "İki dünya", "Lalə", "Bənövşə", "Şeirlər", "Ulduzlar", "Seçilmiş şeirlər və poemalar" və bu kimi digər kitabları ədəbi tənqidçilər tərəfindən Azərbaycan ədəbiyyatının müvəffəqiyyəti kimi qiymətləndirilir. "Ulduzlar", "Fədai", "Şah və qarışqa", "Koroğlunun qocalığı", "Gülər", "Səməd Vurğunla görüş" poemaları müəllifinə daha böyük şöhrət gətirir.

Zeynal Xəlil həmçinin dramaturgiyada da qələmini sınayır. "İntiqam" adlı ilk pyesi bir sıra teatrlarda tamaşaya qoyulur və müvəffəqiyyət qazanır. O daha sonra "Qatır Məmməd" pyesini yazır. Bu əsərin də uğurlu səhnə həyatı olur, uzun müddət teatrların repertuarında yer alır. 1974-cü ildə əsər əsasında eyniadlı bədii film (rejissor Rasim Ocaqov) çəkilir.

Zeynal Xəlil İkinci Dünya müharibəsi illərində döyüşçülərin qəhrəmanlığına biganə qalmır, onları tərənnüm edən "Yəhərləyin atları", "416", "Döyüşçünün vəsiyyəti" və s. əsərlərini yazır. Əksəriyyəti azərbaycanlılardan ibarət məşhur 416-cı Taqanroq atıcı diviziyasının keçdiyi döyüş yolu, alman faşistləri ilə ölüm-dirim mübarizəsində Azərbaycan oğullarının böyük hünəri şairin yüksək poetik dili ilə tərənnüm olunur:

*Ana torpaq eşitdi, bayram etdi bu günü...*
*Dəniz kimi qabardır*
*Cavanşir öz köksünü –*
*Uzaqlara tutaraq əlindəki süngünü,*
*Dedi: – Dörd yüz on altı!*

*Qızlar məktub göndərdi,*
*nəğmə qoşdu bəstəkar,*
*Zülfü "Segah" oxudu, Qurban kişi çaldı tar.*
*Dastanlara sığmadı sizdəki mərdlik, vüqar,*
*Dedi: – Dörd yüz on altı!*

Zeynal Xəlil həm də nəğməkar şairlərimizdəndir. Ötən yüzilliyin 50-ci illərində müəllifin onlarla əsərinə mahnılar bəstələnib. Q.Hüseynli şairin sözlərinə "Ay işığında" mahnısını yazır. Bu nəğmə neçə-neçə görkəmli xanəndənin repertuarında yaşayır. A.Babayevin şairin sözlərinə bəstələdiyi "Kimlər gəldi, kimlər getdi" mahnısı Xalq artisti Mirzə Babayevin ifasında könülləri oxşayıb, insanları həyat haqqında düşüncələrə qərq edib. E.Sabitoğlunun şairin sözlərinə yazdığı "Bu gecə" mahnısı da dinləyicilər tərəfindən maraqla qarşılanır.

Azərbaycanın əsrarəngiz təbiəti şairin əsas ilham qaynaqlarından olub. Gəncəçay, Hacıkənd, Gəncənin xan çinarları, dağlar yaraşığı Göygöl və s. şairin



təbini coşdurub. Şair "Mirzə Şəfi Vazehi oxuyarkən" şeirlər silsiləsinə daxil olan əsərlərində Mirzə Şəfinin dili ilə deyir:

*At sürüb Göygölə çox çıxmışam mən,*
*Dağlarda çiynimə qonubdur bulud.*
*Meşələr xəyala dalanda hərdən*
*Məni öz qoynuna alıbdır sükut.*

*Tiflisdə edəndə Kürə tamaşa,*
*Duydum Gəncəçayın qıjıltısını,*
*Az qaldı başımda xəyalım çaşa,*
*Andım göy otların xışıltısını.*

*...Vətənsiz gülmədi gözümdə aləm,*
*Andım xan Kəpəzi, andım Qoşqarı...*
*Gəncə hər sözümə bir qanad oldu,*
*Könlüm Gəncə ilə daim şad oldu...*

Araşdırmalarda qeyd edilir ki, 1956-cı ildə Zeynal Xəlilin "Göygöl düşüncələri" adlı əsəri işıq üzü görür. Xalq yazıçısı İlyas Əfəndiyev əsərlə bağlı fikirlərini oxucularla bölüşərək yazır: "Şairin bir qələm yoldaşı, bir oxucu kimi mənə xoş gələn cəhəti, hər şeydən əvvəl, bu şeirlərdəki hisslərin, düşüncələrin təravəti, saflığı və gözəlliyidir. Onları oxuyarkən Göygölün hüsnünü, onun sahillərində titrəşən çiçəklərin rayihəsini duyursan. Elə bil ki, sən də şairlə bərabər o yerləri gəzir, təbiətin ecazkar gözəlliyinə nüfuz edirsən. Kölgədə bitən, rəngi solğun "çiyələyi" görüb fikrə gedirsən. Şehli otlar üzərində qalan "maral izi" sənə həyatın bir mənasını xatırladır. Uzun qərinələrdən bəri yalqız qalan, üzərinə quş da qonmayan "boz qaya" xeyirsiz, xudpəsənd adamları sənin yadına salır...".

Şairin ədəbiyyatımızın inkişafına verdiyi töhfələr yüksək qiymətləndirilib. 1960-cı ildə "Əməkdar incəsənət xadimi" fəxri adına layiq görülüb.

XX əsr Azərbaycan ədəbiyyatında süjetli lirikanın gözəl nümunələrini yaradan Zeynal Xəlil 11 avqust 1973-cü ildə, 59 yaşında vəfat edib.

**Savalan Fərəcov**




# Qocaman teatrımızın gənc məskəni

"Teatr binaları" silsiləsindən növbəti yazı

... "Atanla birlikdə müəllimlərin avqust konfransından çıxıb getdik Zəhra bibingilə. Təzə evlənmişdik, baldızım məni ayaqaçdıya çağırmışdı. Bibingilin məhləsinə çatanda gördük ki, orda bir vur-çatlasın var, gəl görəsən. Söküntünün içindən birtəhər keçib bibigilə çatdıq. Çatan kimi də Zəhra dedi ki, düz bizim məhlənin yerində teatr binası tikiləcək, bizim evlər də plana düşüb, söküləcək. Bir qədər sonra qonşu uşaqlardan biri qaçıb gəldi ki, başladı. Hamımız Zəhragilin evinin damına çıxıb baxdıq. Teatrın təməlqoyma mərasimi idi. Xeyli hökumət adamı, sənətkar yığışmışdı. Çıxış edənlərdən Mirzə İbrahimovla Adil İsgəndərovu tanıdım"...

Bu, mənim teatrsevər, müəllim anam Cənnət xanımın gənclik xatirəsidir. İşə bax ki, uşaq vaxtı eşitdiyim əhvalat indi, həmin xatirənin yaranmasından düz 70 il sonra "Teatr binaları" silsiləsindən hazırladığım yazıda işimə yarayır.

Azərbaycan Dövlət Akademik Milli Dram Teatrının yeni binası Bakıdakı digər teatr binaları ilə müqayisədə xeyli cavan sayılsa da, nədənsə onun haqqında məlumat tapmaq qəliz məsələdir. Deməli, bu boşluğu mümkün qədər doldurmaq gərəkdir.

İllərdən bəri formalaşmış məşhur ifadəni işlətsək, Azdrama binasının tarixi ilə bağlı axtarışa çıxanda məlum oldu ki, rəhmətlik anam yanılmayıbmış. "Kommunist" qəzetinin (indiki "Xalq qəzeti") 28 avqust 1954-cü il tarixli sayında birinci səhifədə yeni binaya dair Azər.TA-nın (indiki AZƏRTAC) geniş məlumatı yer alıb.

"M.Əzizbəyov adına Azərbaycan Dövlət Dram Teatrının yeni binasının bünövrəsi qoyulmuşdur" başlıqlı materialda oxuyuruq: "Avqustun 27-də Bakı şəhərinin yüzlərlə nümayəndəsi, ədəbiyyat və incəsənət işçiləri, partiya, sovet və həmkarlar ittifaqı işçiləri M.Əzizbəyov adına Azərbaycan Dövlət Dram Teatrının yeni binasının tikintisi meydançasına toplaşmışdılar. Burada teatr binasının bünövrəsinin qoyulması münasibəti ilə təntənəli mitinq oldu.

Mitinqi Azərbaycan KP (Kommunist Partiyası – red.) Bakı şəhər komitəsinin katibi M.Qurbanov açaraq, Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin sədri M.İbrahimov (yazıçı Mirzə İbrahimov 1954–1958-ci illərdə respublika Ali Soveti Rəyasət Heyətinin sədri olub) yoldaşa söz verdi.

M.İbrahimov yoldaş öz çıxışında qeyd etdi ki, M.Əzizbəyov adına Azərbaycan Dövlət Dram Teatrının yeni binasının tikilməsi respublikanın mədəni həyatında böyük hadisədir. Bu, bir daha sübut edir ki, Kommunist Partiyası və Sovet hökuməti Azərbaycan xalqının mədəni inkişafı üçün daim qayğı göstərirlər".

Məlumatda daha sonra teatrın direktoru Adil İsgəndərovun, neft sənayesi naziri T.Qasımovun da çıxış etdiyi yazılıb. Buradaca oxucuya məlumat verək ki, teatr binasının tikintisi məhz bu nazirliyin nəzdindəki 3 nömrəli tikinti idarəsinə tapşırılmışdı.





Məlumatda daha sonra deyilir: "Azərbaycan paytaxtında ən gözəl binalardan birini yaratmaq inşaatçılar üçün böyük şərəfdir. Onlar həmin obyektin tikintisinə dair 1954-cü ilin tapşırığını dekabrın 20-dək yerinə yetirmək, teatrın tikintisini vaxtından əvvəl başa çatdırmaq və onu əla qiymətlə təhvil vermək üçün bütün öz təcrübə və biliklərini sərf edəcəklər".

Belə baxanda sitat gətirdiyimiz cümlələr kiçik bir yazıdandır, amma həm də xəbərdir. Üstəlik, təkcə konkret işlə əlaqəli yox, hadisədən 70 il keçəndən sonra həm də dövrün ideoloji mühitini, qaydalarını çatdıran bir xəbərdir.

Sonra, indiki dillə desək, təməlqoyma mərasimində binanın memarlarından Qəzənfər Əlizadə, tikinti idarəsinin bənnalar briqadasının başçısı Hüseynov da nitq söyləyiblər.

Sonda Mirzə İbrahimov tunc kuboku binanın bünövrəsinə qoyur. Maraqlı olan isə kubokun üstündəki yazıdır: "1954-cü il avqustun 27-də Bakı şəhəri zəhmətkeşlərinin nümayəndələri M.Əzizbəyov adına Dövlət Dram Teatrının bünövrəsini təntənəli surətdə qoydular. Bina arxitektorlardan Əlizadə və Mədətovun layihəsi üzrə tikilir. Binanı Azərbaycan SSR Neft Sənayesi Nazirliyinin Azərbaycan məhəlli tikinti idarəsi tikir."

***

Azdrama üçün yeni binanın tikilməsi məsələsi hələ 1940-cı illərin sonu – 1950-ci illərin əvvəlində aktuallaşmışdı. İndiki Neftçilər prospektindəki bina (Musiqili teatrın yerləşdiyi bina) Dram teatrının tələblərinə cavab vermirdi. O zaman yeni binanın layihəsi memar Qəzənfər Əlizadəyə tapşırılmışdı. Qəzənfər Əlizadə layihələrində Azərbaycan və klassik Qərb memarlığının fraqmentlərini böyük bacarıqla uzlaşdırmağı bacarırdı.



Teatr binasının tikilməsi üçün qədim Quba meydanına çıxan, məşhur Sovetski məhəlləsinin ən aşağı hissəsindəki daxma tipli, köhnə, komfortlu yaşayış üçün heç bir şəraiti olmayan tikililər söküldü, həmin evlərin sakinlərinə o zaman sürətlə inkişaf edən Nərimanov (indiki Cavid) prospektində (metronun "Elmlər Akademiyası" stansiyası ilə üzbəüz) yerləşən beşmərtəbəli "xruşovka" deyilən binalarda mənzillər verildi.

Teatrın binası altı ilə tikildi. 1960-cı ildə Azərbaycanda sovet hakimiyyətinin qırxilliyi təzə teatr binasında qeyd edildi. Sov.KP MK-nın Birinci katibi Nikita Sergeyeviç Xruşşov bu münasibətilə Bakıya səfər etmiş, yeni binada təşkil olunan bayram tədbirində çıxış etmişdi.

Lakin teatrın kollektivi təzə binaya yayda, teatrların sakit mövsümündə yığışdı. Bunun bir səbəbi də, çox güman ki, teatrın əsas tamaşa salonu, foyesi, tamaşaçıların görə biləcəyi bütün məkanları hazır olsa da, məşq, qrim otaqları, rekvizit otaqları kimi yardımçı bölmələrinin istifadəyə hələ tam hazır olmaması idi. Ehtimalımızı dəqiqləşdirmək üçün bir sıra mənbələrə müraciət etdik. İkicildlik "Akademik Milli Dram Teatrı: foto-salnamə" kitab-albomunu (2010) vərəqləyəndə ehtimalımız təsdiqləndi.

"22.09.60. Kollektivin bütün üzvləri məzuniyyətdən və əlavə istirahətdən qayıtdılar. Yığıncaq oldu. Mədəniyyət naziri Abdulla Bayramov bildirdi ki, bina tam hazır deyil. Nazir kollektivə 23, 24, 25 və 26 sentyabrda əlavə istirahət günləri verilməsini təklif etdi. 27.09 qanuni istirahət günüdür" (II cild, s. 159).

Təxminən iki həftə ərzində kollektiv Bakı qəsəbələrində səyyar tamaşalarla çıxış edir. Nəhayət, oktyabrın 15-nə dair qeyddə oxuyuruq: "Teatr mövsümünün açılışı münasibətilə yığıncaq oldu. M.Qurbanov, A.İsgəndərov, A.S.Gəraybəyli, Ə.H.Ələkbərov, A.Babayev, N.M.Hidayətzadə çıxış etdilər.

Saat 19-da teatrın kollektivi, SSRİ Xalq artisti Bülbül, A.İsgəndərov, S.Rəhman, Ə.Şərifov, yaşlı aktyorlar, tanınmış sənətkarlar pərdə qabağına çıxdılar. Qırmızı lenti mədəniyyət naziri A.S.Bayramov kəsdi. Məxmər pərdəni A.İsgəndərov və Ə.N.Ələkbərov açdılar.


Teatrın yeni binasının açılışı. 1960-cı il

Təntənəli mərasimdə Azərbaycan Respublikasının rəhbərləri iştirak edirdilər. Tamaşadan sonra V.Y.Axundov (Azərbaycan KP MK-nın birinci katibi Vəli Axundov – red.), M.Ə.İsgəndərov (Azərbaycan SSR Nazirlər Sovetinin sədri Məmməd İsgəndərov), S.M.Cəfərov (Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin sədri Səftər Cəfərov) səhnə arxasına gəlib aktyorları və teatrın bütün işçilərini təbrik etdilər. Yeni binanın açılışı günü ilk tamaşa "Almaz" əsəri oynanıldı".

Teatr binası sovet moderni üslubu ilə klassik üslubun uzlaşdırılması tərzində, paralelepiped formasında inşa edilmişdi. Binanın fasadı sütunlar və hündür tağ pəncərələrlə həll edildiyindən onun görkəmi ağır təsir bağışlamırdı. Əməkdar memar, memarlıq elmləri üzrə elmlər doktoru, Azərbaycan Memarlıq və İnşaat Universitetinin professoru Nizami Nağıyev "Azərbaycan Respublikası şəraitində memarlıq irsinin mənimsənilməsi prinsipləri, kütləvi yaşayış tikintisinin estetikası və memarlığın yaradıcı istiqamətinin təkamülü" əsərində teatr binası və onun memarları haqqında belə yazır: "Ruhən milli memarlığın yaradılması memar Q.Əlizadənin axtarış predmetidir. Onun memar M.Mədətov ilə birlikdə layihəsini verdiyi Azərbaycan Dram Teatrının binası memarlıq-məkan və plastik həllinə görə maraqlıdır. Binanın kompozisiyası order memarlığının klassik həllində milli ruhun interpretasiyasına əsaslanır. Tökmə sütunlardan istifadə etməklə qurulmuş çoxsütunlu çardaq eyvan formasında həll edilib ki, bu da Azərbaycan xalq memarlığında yay tikililərinin tərtibat formasıdır".

Eyvanda pəncərə çərçivələrinin arasında Azərbaycan ədəbiyyatının məşhur simalarının heykəlləri qoyulub. Eyvandakı şəbəkə işləmələr binanın sərt düzbucaqlı formasına zəriflik bəxş edərək onun vizual qavrayışını xeyli yumşaldır.

Teatrın binası müxtəlif baxış nöqtələrindən yaxşı görünür. Onun dərin çardaqlı eyvanı bütün rakurslarda göz oxşayır. Teatrın zərif interyerləri binanın möhtəşəm xarici simasının məntiqi davamı idi. Layihə müəllifləri o illərin dəbinə uymadan interyer bəzəklərində pafosdan mümkün qədər qaçmağa çalışmışdılar. Foyenin və salonun tərtibatında mərmər və fiqurlu yapma detallardan istifadə olunmuşdu. Binanın planlaşdırılmasında bir mühüm cəhət də bu idi, o vaxt 740 nəfər tamaşaçıya hesablanmış salon ikinci mərtəbədə yerləşirdi, bura iki tərəfdən enli mərmər pilləkən qalxırdı. Tamaşaçı yerləri parterdə, beletajda, eyvanda və iki yaruslu lojalarda yerləşirdi.

Bina hazır olandan sonra aydın oldu ki, teatr şəhərin ən gözəgəlimli tikililərindən biridir və o, Bakının bənzərsiz simasının formalaşmasında aparıcı rollardan birini oynayacaq. Teatr keçmiş Quba meydanının (o zaman isə Dmitrov meydanının) əsas memarlıq nümunəsinə çevrildi.

Lakin binanın tikilməsi Bakının baş planına təsirsiz ötüşmür. Bina Sabunçu vağzalından üzüyuxarı, ta Dağlıq küçələrini kəsənədək Sovetski məhəllısinədək qalxan Basin (indi Füzuli) küçəsinin yolunu kəsdi və Basin küçəsi 1 ünvanını daşımağa başladı. Beləliklə, artıq Bakı şəhərsalma və memarlıq baxımından yaranmış bir problemi həll etməli idi: respublikanın ana teatrının qarşısı təkcə abad və geniş yox, həm də şəhərin görkəminə öz töhfəsini verəcək meydanla süslənməli idi. Bu, artıq başqa bir yazının mövzusu olduğu üçün onu başqa vaxta saxlayırıq.

1960-cı ildən sonra teatrın binası bir neçə dəfə təmirə bağlandı. Bu da təbii idi, insanlar kimi binalar da qocalır. Üstəlik, tikinti-təmir, bərpa texnologiyaları durmadan yenilənir və teatr tamaşalarına təkcə sənət baxımından deyil, həm də texniki baxımdan tələblər dəyişir.

Burada hələlik son dəfə 2008-2010-cu illərdə əsaslı təmir və yenidənqurma işləri görülüb. Bərpaçıların qarşısında memarların ilkin layihəsini pozmadan binaya yeniliklər gətirmək kimi vəzifə qoyulmuşdu. Binanın fasadı yeniləndi, ona bəzəkli panellər və şüşə virajlar əlavə edildi. Altı görkəmli Azərbaycan dramaturqunun eyvandakı büstü də bərpa edilərək yerinə qaytarıldı.

Bundan başqa, dekorasiyaları daşımaq üçün xüsusi keçid, əlavə olaraq yeni ikimərtəbəli bina və digər yardımçı tikililər inşa edildi. Dülgər, çəkmə və tikiş sexləri əsas binadan yeni korpusa köçürüldü. Tamaşa salonunda müasir işıqlandırma və akustika sistemləri quraşdırıldı. Azdrama 2010-cu il martın 10-da – Milli Teatr Günündə teatr yenilənmiş binada və 540 nəfərlik tamaşaçı salonunda gec də olsa, teatr mövsümünü açdı...

***

"Teatr binaları" silsiləsinə başlayanda, təbii ki, Azərbaycan Dövlət Akademik Milli Dram Teatrının binası barədə də yazı nəzərdə tutulmuşdu. Nədənsə, digər binalar barədə material tapmaq daha asan olduğundan, ya da hansısa səbəbdən bu teatr binası barədə yazımız avqusta qaldı. Necə deyərlər, söz vaxtına çəkər. Hər təsadüfdə bir zərurət varmış. Bu ay paytaxtımızın ən gözəl binalarından birinin təməlinin qoyulmasının düz 70 ili tamamdır. Bu da bir tarix, əlamətdar gündür.

Oxuduğunuz araşdırma yazısı da "Mədəniyyət" qəzetinin həmin əlamətdar günə töhfəsi olsun.

**Gülcahan Mirməmməd**

# Əbədi yanan ocağın şöləsi – “Yanardağ”



*Gümanımızda yanılmışdıq...*
*Yayın qorabişirən vaxtı ziyarətçinin az və ya təkəm-seyrək olacağını düşünürdük. Amma yayın təndir kimi yandırıb-yaxan istisinə baxmayaraq, “Yanardağ”ı ziyarət etməyə gələnlərin əlindən iynə atsan, yerə düşməzdi. Tünlük lap elə giriş qapısından başlanırdı. Buraya üz tutanlar dünyanın ən müxtəlif ölkələrindən gəlmişdi - Hindistan, Səudiyyə Ərəbistanı, Pakistandan tutmuş Avropa ölkələrinədək...*

“Yanardağ” Dövlət Tarix-Mədəniyyət və Təbiət Qoruğu ilə tanışlığımız baş fond mühafizəçisi Səbinə İmanovanın bələdçiliyi və yaxından köməyi ilə baş tutdu.

Onun verdiyi məlumatdan öyrəndik ki, son illər ziyarətçilərin sayının çoxalmasının başlıca səbəblərindən biri qoruğun ərazisinin müasir standartlara uyğun şəkildə yenidən qurulmasıdır.




Qeyd edək ki, ölkəmizdə bu cür obyektlərin təmiri, bərpası, yenidən qurulması sahəsində çox böyük işlər görülüb. “Yanardağ”ın ərazisi Prezident İlham Əliyevin 2 may 2007-ci il tarixli sərəncamı ilə Dövlət Tarix-Mədəniyyət və Təbiət Qoruğu elan edilib. Qoruğun fəaliyyəti Nazirlər Kabinetinin 7 iyun 2018-ci il tarixli qərarına əsasən Dövlət Turizm Agentliyi tərəfindən tənzimlənir. Prezidentin 17 iyul 2018-ci il tarixli sərəncamına əsasən, “Yanardağ” Dövlət Tarix-Mədəniyyət və Təbiət Qoruğu yenidən qurulub, abidənin ərazisində müasir turizm infrastrukturu yaradılıb. Əsaslı şəkildə təmir və bərpa olunan qoruğun açılışı 2019-cu ilin iyulunda olub. Açılış mərasimində Prezident İlham Əliyev və Birinci vitse-prezident Mehriban Əliyeva iştirak ediblər.

“Yanardağ” Dövlət Tarix-Mədəniyyət və Təbiət Qoruğu 27,52 hektar ərazini əhatə edir və onun tərkibinə əbədiyaşar alov təbii abidəsi ilə yanaşı, “Qurd yuvası” mağarası, çoxəsrlik tarixə malik və qədim sənduqələrlə zəngin iki qəbiristanlıq, kükürdlü su bulağı, hələ də aktiv olan Qırməki palçıq vulkanı, Qırməki vadisi, Osmanlı səngərləri və yerli əhali tərəfindən müqəddəs hesab edilən Əlidaşı piri daxildir.

## Bakının rəmzi hesab olunan üç yanar alov dili və dəniz simvolu...

Abşeron rayonunun Məmmədli kəndinin ərazisində yerləşən “Yanardağ” Dövlət Tarix-Mədəniyyət və Təbiət Qoruğunun ən qiymətli incisi burada fasiləsiz olaraq şölələnən ocaqdır. Təqribən 14 metr uzunluğunda zolaqda torpağın dərinliklərində gedən tektonik proseslər nəticəsində bərk süxurlarda əmələ gələn çatlardan sızan təbii qazın alışması “Yanardağ”ın yaranmasına səbəb olub.

Torpağın sinəsindən baş qaldıraraq gecə-gündüz yanan alov dilimlərinin tarixi isə çox uzaq illərə gedib çıxır. Bu barədə ilk yazılı mənbələrdən biri eramızın V əsrinə təsadüf edən Bizans alimi Paniyli Priskə məxsusdur. O, Qafqaz Albaniyasından bəhs edərkən Xəzər dənizi sahillərində sualtı qayalardan qalxaraq gecə-gündüz yanan alovlardan bəhs edir. Bundan başqa, dənizdən Bakı sahillərinə yaxınlaşan səyyahlar uzaqdan gecə-gündüz alovlanan dağları, qayaları, hətta suları gördüklərini nəql edirlər.

X əsr ərəb alimi Əl-Məsudi “Qızıl yuyulan yer və cəvahirat mədənləri” əsərində, coğrafiyaşünas Əbu Duləf əl-Yənbui özünün risalələrində, Əl-Farisi əl-İstəxri “Yollar və məmləkətlər haqqında kitab” əsərində həmin ərazilərdəki yanar torpaqlar haqqında geniş məlumatlar veriblər. Bakı, bütövlükdə Abşeron yarımadası, ərazidəki zəngin neft və qaz yataqları, demək olar ki, IX-XII əsr ərəb alimləri və səyyahlarının diqqət mərkəzində olub.

Deyilənə görə, “Yanardağ”ın əks istiqamətində yanan üç təpə olub, zaman keçdikcə yerin altından sızan qaz kütləri getdikcə azaldığından digər iki təpədəki alov öləziyib. İndi yanmaqda olan sonuncu təpədə də alov əvvəlki vaxtlarda olduğundan bir qədər azalıb. Bakının rəmzi hesab olunan üç yanar alov dili və dəniz simvolu da öz mənbəyini həmin vaxtlardan götürüb.

...İndi uzaq illərin arxasında qalan həmin tarix, dağın köksündən baş qaldıraraq səyahətçilərin diqqətini özünə cəlb edən alov mənbəyi barədə həqiqətlər ehtimallara, gümanlar fərziyyələrə qarışıb. Dağ zəngin neft və qaz yataqları olan ərazidə yerləşdiyindən alov yaranmasının səbəbi metan qazı ilə kükürdün qarışığıdır. Həmin maddə istifadə üçün yararsız olduğundan onu yandırmaq qeyri-mümkündür və kükürd-qaz qarışığı yalnız açıq hava şəraitində yanır. Qapalı məkanda isə onun yanması partlayışa səbəb olur. Başqa bir versiyaya görə, eramızın əvvəllərində ildırım düşməsi nəticəsində yanmağa başlayan dağı nə qar, nə yağış, nə də çovğun söndürə bilməyib. Hətta buna inanmayanlar qarlı-yağışlı havada onun ziyarətinə gələrək yenə də şölələnən ocağı görüblər.

“Yanardağ” atəşpərəstlik və zərdüştlük dininin davamçıları tərəfindən müqəddəs məkan kimi qəbul olunur.





## “Yanardağ” muzeyi

Qoruğun ərazisində fəaliyyət göstərən muzeydə tarixin lal sükutunu pozan bir sıra məqamlara işıq tutulur. Burada müxtəlif bölgələrdən götürülmüş eksponatlar, ekran nümayişi, məşhur rəssam Hüseyn Haqverdiyevin “Unudulmuş əcdadların kölgəsi” instalyasiyası və zərdüştlüyü tərənnüm edən məlumat lövhəsi əks olunub.

“Yanardağ” müasir qapalı muzeyində ənənəvi eksponatlarla yanaşı, bəzi təbiət abidələrinin 3D maketləri, videoinstalyasiyalar və videoçarxlar nümayiş edilir. Muzey “Yanardağ”ın yeni turizm inkişaf konsepsiyasına uyğun olaraq hazırlanıb və onun ziyarətçiləri Azərbaycanda odun, atəşin tarixinə dair maraqlı məlumatlarla tanış olmaq imkanı qazanırlar.

Muzeydəki “İşıq və kölgə” oyunu da çox maraqlıdır. Həmin oyun zamanı divarın önündən keçən hər kəs öz əksini alov dilləri şəklində müşahidə edə bilər.

2007-ci ildən qoruq statusuna malik olan “Yanardağ”da, həmçinin ərazidə tapılan, yerli əhali tərəfindən istifadə edilmiş qədim daşlar və sənətkarlıq nümunələrinin, qaval daşının nümayiş etdirildiyi açıq hava muzeyi də yaradılıb. Burada təsərrüfatda istifadə edilən müxtəlif formalı daşlar nümayiş olunur. Müxtəlif əsrlərə aid həvəng daşı, üzərində günəş təsviri olan yonulmuş daş, daşdan hazırlanan su qabı, dəyirman daşları, daş kitabə, üzümün sıxılması üçün tiyan və daşdan hazırlanmış digər məişət nümunələri var.

Valideynləri ilə gələn uşaqların vaxtlarını maraqlı keçirməsi üçün qoruqda uşaq əyləncə mərkəzi və oyun meydançası da fəaliyyət göstərir. Mərkəzdə uşaqlar üçün maraqlı stendlər, nağıl qəhrəmanlarını əks etdirən pazllar və “Yanardağ”ı əks etdirən ayrıca stend var. Bundan başqa, gənc rəssamların əsərlərinin nümayiş olunduğu məkan və əyləncə zonası da maraqla baxılır.

Fiziki məhdudiyyətli şəxslərin “Yanardağ”da alovun ətrafına enməsi üçün xüsusi yol da var.

## “Yanardağ”ın ziyarətçiləri

“Yanardağ” yerli turistlərlə yanaşı, əcnəbilərin də maraqla ziyarət etdiyi məkanlar sırasındadır. Buraya üz tutanlar 1-2 saat ərzində həm ziyarət edir, həm də ailə üzvləri ilə birlikdə səmərəli vaxt keçirirlər.

Baş fond mühafizəçisi qeyd edir ki, əvvəllər turistlər yalnız “Yanardağ” abidəsini ziyarət etməklə kifayətlənirdilərsə, aparılan əsaslı təmirdən sonra turizm marşrutu genişləndirilib. Ərazidə qədim dövrə aid insan düşərgəsi, qədim mağaralar, palçıq vulkanı, kükürdlü su bulağı kimi turistlərin maraq göstərdikləri yerlər var. Osmanlı əsgərlərinin qazıb istifadə etdikləri səngərlər, həmçinin kurqanlar da ziyarətçilərin marağına səbəb olur.

Bu ilin birinci yarısında qoruğu 140 mindən çox turist ziyarət edib. Ziyarət edənlərin içərisində ən çox Hindistan, Pakistan, Səudiyyə Ərəbistanı, Türkiyə və Rusiyadan gələnlər üstünlük təşkil edir.

Onlardan bir neçəsi ilə həmsöhbət olduq.

Pakistanlı Mumtaz Xan “Yanardağ” haqqında çoxdan eşitsə də, onu ilk dəfə gördüyünü bildirir: “Boz təpələrin, çılpaq yamacların qoynunda yerdən qaynayan alov məni heyrətləndirdi. Açığı, bir anlığa da olsa özümü nağıllar aləmində hiss etdim. Həqiqətən, illər, əsrlər boyu yerdən təbii ocaq yanması möcüzəli təsir bağışlayır”.

Pooja Svami deyir: “Hindistanın Surat şəhərindən gəlmişəm. Bu, mənim Bakıya birinci səfərimdir. Paytaxtınız çox gözəldir, insanlar mehriban və qonaqpərvərdir. “Yanardağ” həyatım boyu gördüyüm ən unikal yerlərdən biridir. Burada keçirdiyim hər saat, hər an mənə xoş gəlir və gördüyüm mənzərədən həzz alıram”.

Pakistanlı Luqman Raşer də gördüklərindən məmnun olduğunu ifadə edir: “Azərbaycana ilk gəlişim olsa da, çox razı qaldım. Məndən olsa hər kəsin bura gəlib baş çəkməyini məsləhət görərdim. Yerdən çıxan təbii alovu görmək?! Bu, çox unudulmazdır! Hər kəs onun necə təbii olduğunu öz gözləri ilə görsə yaxşıdır”.

## Qırməki vadisi və palçıq vulkanı

Qırməki vadisi Məmmədli-Digah şose yolunun sol tərəfində, “Yanardağ”ın cənub-şərq hissəsində, dağın arxasında yerləşir. Vadinin uzunluğu 5 kilometrə qədər, eni 400-500 metrə çatır. Vadi neftli-qazlı yataqların Yer səthinə həddən artıq yaxın olması və bəzi yataqlardakı neft və qaz tərkibli mayenin təbii yollarla yer səthinə çıxaraq kütləvi axın əmələ gətirməsi nəticədə yumşaq süxurlu ərazilərin minilliklər ərzində yuyulması sayəsində əmələ gəlib. Aparılan tədqiqatlar nəticəsində müəyyən edilib ki, ərazidə zəngin bitum yataqlarının mövcudluğu məhz bilavasitə axınlarla bağlı olub. Ərazidən keçən axın zaman keçdikcə özünə dərin və enli bir dərə yaratmaqla yanaşı, sonralar çöküntü halında həmin dərə boyu yığılıb qalıb. Bu da yerli əhali tərəfindən dərənin “qır məkanı”, “kir məkanı” – Qırməki dərəsi adlandırılmasına səbəb olub.

Turistlərin daha çox üz tutduqları yerlərdən biri də qoruğun ərazisindəki Qırməki vadisində yerləşən Qurd yuvası adlanan mağaradır. Mağara giriş və çıxışlardan ibarətdir. Abşeronun qədim yaşayış məskəni olduğunu nəzərə alsaq, həmin mağarada ibtidai insanların yaşadığı təxmin edilir.

Palçıq vulkanı kəndin qərb hissəsində olan vadinin qərb yamacında yerləşir. Nadir təbiət abidəsidir. Əsasən gilli-qumlu, neftli-qazlı çöküntü laylarında meydana gələn təzyiqlə əlaqədar yumşaq süxurlarda özünə yol tapan yüksəktəzyiqli qaz kütləsi Yer səthinə çıxaraq qarşısında olan bütün növ süxur tiplərini palçıq kütləsi şəklində üzə çıxarır və ərazidə vulkanik proseslərin getməsi nəticəsində palçıq vulkanının meydana gəlməsinə səbəb olur. Palçıq vulkanının ərazidə baş vermiş və verməkdə davam edən seysmik hadisələrlə – zəlzələlərlə də genetik şəkildə əlaqəsi vardır. “Qırməki vulkanı” adlandırılması onun yaxınlığında yerləşdiyi Qırməki vadisi ilə bilavasitə bağlıdır. Ətrafında aparılmış tədqiqatlar nəticəsində kvarsit, kobalt və s. kimi bir çox minerallara rast gəlinib. Həmin mineralların əraziyə yayılması isə bilavasitə vulkan püskürmələri ilə əlaqədardır.

## Hər ağızda bir dua, hər ürəkdə bir niyyət...

Qoruğun ərazisində 3 tematik zonadan ibarət muzey, açıq hava konsertləri üçün nəzərdə tutulan 500 nəfərlik amfiteatr, sənətkar emalatxanaları və mağazalar, yerli sənətkarlar tərəfindən keramika, şüşə, taxta və parça kimi təbii materiallardan hazırlanan suvenirlərin satışı məntəqəsi və parkinq də var.

İlin bütün fəsillərində qoruqda qaynar həyat hökm sürür. Burada tədbirlər, sərgilər bir-birini əvəz edir. “Yanardağ” qoruğunda yerli və xarici ziyarətçilər rəngarəng sənət nümunələrindən ibarət “Vətən bağı” adlı dekorativ-tətbiqi sənət sərgisini izləyiblər. Hindistanın Azərbaycandakı səfirliyi tərəfindən təşkil olunan 8-ci Beynəlxalq Yoqa Günü (IDY 2022) də maraqla qarşılanıb, yoqa həvəskarları üçün açıq havada xüsusi sessiya təşkil edilib.

“Sariban” peşə inkişaf mərkəzinin təşkilatçılığı ilə keçirilən “Qurama” əl işlərinin sərgisində 20-yə yaxın sənətkarın əl işləri təqdim edilib. Müxtəlif materiallardan (dəmir, taxta, şüşə və s.) hazırlanan qurama sənət nümunələrinin sərgisi və satışı təşkil olunub.

Qoruq rəhbərliyi Vətən müharibəsi şəhidlərinin uşaqlarını da unutmur, tez-tez onların bura gəlişi təmin edilir və əyləncəli tədbirlər təşkil olunur.

...”Yanardağ”a gələnlərin ardarası kəsilmir. Turistlər xalqımızın keçmişindən soraq verən hər daş, hər eksponatla maraqlanır, tarix və təbiətimizə maraq göstərirdilər. Əlbəttə ki, onların hamısı qoruğun alov olan hissəsinə enərək şəkil çəkdirir, əl açıb dua edib, niyyət tuturlar. Təki bütün niyyət və dualar qəbul olsun! Xoş arzulu duaların hasil olmasını kim istəməz ki?

**Süleyman Qaradağlı**
**Abdulla Suvar**
**AZƏRTAC**

## Xatirə təqvimi — 23 – 27 avqust

### Azərbaycan

**23 avqust 1922** – Tarixçi alim, Azərbaycan SSR EA-nın müxbir üzvü Əlövsət Nəcəfqulu oğlu Quliyev (1922 – 6.11.1969) anadan olub. Tarix İnstitutunun direktoru işləyib.

**23 avqust 1943** – Görkəmli aktyor, Xalq artisti Şahmar Zülfüqar oğlu Ələkbərov (1943 – 12.8.1992) anadan olub. “Dağlarda döyüş”, “Yeddi oğul istərəm”, “Qatır Məmməd”, “Arxadan vurulan zərbə” və s. filmlərdə çəkilib. “Sahilsiz gecə”, “Qəzəlxan” filmlərinin quruluşçu rejissorudur, filmlərin səsləndirilməsində iştirak edib.

**24 avqust 1896** – Sənətşünas alim Məhəmməd Ağaoğlu (1896–1949) İrəvan şəhərində anadan olub. 1920-ci ildə Türkiyəyə, oradan Amerikaya mühacirət edib. Miçiqan Universitetində dərs deyib, “İslam incəsənəti” jurnalının redaktoru olub.

**24 avqust 1923** – Xalq artisti Lev Lazareviç Qruber (1923 – 30.4.1994) Rusiyanın Barnaul şəhərində doğulub. 40-cı illərdə Bakıya köçüb. Teatr İnstitutunu bitirdikdən sonra Rus Dram Teatrında çalışıb. Filmlərdə (“Uzaq sahillərdə”, “Bizim küçə”) çəkilib. 1990-cı ildə İsrailə köçüb, orada vəfat edib.

**24 avqust 1926** – Əməkdar incəsənət xadimi, bəstəkar Nazim Ağalar oğlu Əliverdibəyov (1926 – 16.2.1985) Bakıda doğulub. “Mingəçevir” simfonik poeması, “Cırtdan” nağıl-operası və s. əsərlər, filmlərə musiqi yazıb.

**24 avqust 1990** – Əməkdar mədəniyyət işçisi, aşıq Əkbər Zərbalı oğlu Cəfərov (1933–1990) vəfat edib.

**25 avqust 1910** – Əməkdar incəsənət xadimi, rəssam Bəhram Tofiq oğlu Əfəndiyev (1910–1967) anadan olub. Gəncə Dövlət Dram Teatrında baş rəssam işləyib.

**25 avqust 1915** – Əməkdar memar Tahir Abdulla oğlu Abdullayev (1915–2004) anadan olub.

**25 avqust 1926** – Xalq rəssamı Xalidə Ələkbər qızı Səfərova (1926 – 23.12.2005) Gəncədə anadan olub. Yaradıcılığında natürmort, mənzərə, nağıllara illüstrasiyalar geniş yer tutur: “Dağ çayı”, “Aşıq Qərib”, “Çövkən oyunu”, “Payız bağında” və s.

**25 avqust 1931** – Yazıçı, naşir, Əməkdar mədəniyyət işçisi Əjdər Rza oğlu Xanbabayev (1931 – 30.5.1990) anadan olub. “Azərnəşr”in direktoru olub.

**25 avqust 1935** – Xalq şairi Fikrət Qoca (Fikrət Göyüş oğlu Qocayev; 1935 – 5.5.2021) Ağdaş rayonunun Kotanarx kəndində doğulub. “Təkərlər geri fırlanır”, “Yaralı çiçəklər”, “Oddan keçənlər” və s. poemaların müəllifidir. Şeirlərinə populyar mahnılar (“Gəl, ey səhər”, “Payız gəldi” və s.) bəstələnib.

**25 avqust 1942** – Şair, publisist Davud Məcid oğlu Nəsib (1942 – 26.3.2003) Qazax rayonunda anadan olub. Kitabları: “Ürək sözsüz danışır”, “Bizdən sonra yaşayanlar”, “Karvan gedir” və s.

**25 avqust 1945** – Əməkdar artist, Dövlət mükafatı laureatı Vəfa Nüsrət qızı Fətullayeva (1945 – 21.5.1987) anadan olub. Akademik Dram Teatrında çalışıb. Televiziya tamaşalarında yaddaqalan obrazlar yaradıb. “Firəngiz” filmində (1975) baş rolda çəkilib.

**25 avqust 1948** – Əməkdar artist Faiq Məsim oğlu Qasımov (1948 – 23.1.2017) anadan olub. Gəncə Dövlət Dram Teatrında aktyor və rejissor işləyib.

**25 avqust 1965** – Əməkdar elm xadimi, filologiya üzrə elmlər doktoru, professor Hüseyn Məmməd oğlu Həşimli (1965 – 20.6.2020) Naxçıvan MR Culfa rayonunun Teyvaz kəndində doğulub.

**26 avqust 1892** – İctimai-siyasi xadim, publisist Seyid Cəfər Pişəvəri (1892 – 12.6.1947) Cənubi Azərbaycanın Xalxal mahalının Zeyvə kəndində anadan olub. 1945–1946-cı illərdə İranda azərbaycanlıların milli hərəkatına başçılıq edib.

**26 avqust 1940** – Əməkdar artist, müğənni İdris Saleh oğlu Mehdiyev (1940 – 10.11.2015) Gəncə şəhərində doğulub. Azərbaycan Televiziyası və Radiosu Xorunun solisti və direktoru olub.

**26 avqust 1983** – Kinorejissor, Əməkdar incəsənət xadimi Arif Hacağa oğlu Babayev (25.9.1928 – 1983) vəfat edib. Filmləri: “Uşaqlığın son gecəsi”, “Gün keçdi”, “Arxadan vurulan zərbə”, “Alma almaya bənzər”, “Birisigün, gecəyarısı...” və s.

**26 avqust 2003** – Xalq artisti, tanınmış aktyor Həsən Ağaməmməd oğlu Məmmədov (22.11.1938 – 2003) vəfat edib. “Gün keçdi”, “Yeddi oğul istərəm”, “İstintaq”, “Axırıncı aşırım” və s. filmlərdə yaddaqalan obrazlar yaradıb.

**27 avqust 1918** – Əməkdar rəssam Ənvər Hacıağa oğlu Almaszadə (1918 – 6.3.2007) Bakıda doğulub. Akademik Opera və Balet Teatrında rəssam (1937–1992) işləyib.

**27 avqust 1921** – Yazıçı-dramaturq Seyfəddin Dağlı (Seyfəddin Əliağa oğlu Abbasov; 1921 – 18.1.1983) Xızıda doğulub. “Adı sənin, dadı mənim”, “Aydınlığa doğru” və s. pyeslərin, “Bahar oğlu”, “Məşəl” kitablarının müəllifidir. “Kirpi” jurnalının baş redaktoru olub.

**27 avqust 1928** – Əməkdar rəssam Nadir Əlimuxtar oğlu Zeynalov (1928 – 16.3.1987) anadan olub.

**27 avqust 1929** – Əməkdar mədəniyyət işçisi, aktyor, rejissor Məmmədkamal Allahqulu oğlu Kazımov (1929 – 13.12.2005) Bakıda anadan olub. Akademik Dram, Sumqayıt, Ağdam teatrlarında çalışıb, filmlərdə çəkilib.

**27 avqust 1942** – Ərəbşünas alim, akademik Vasim Məmmədəli oğlu Məmmədəliyev (1942 – 13.10.2019) Bakıda anadan olub. “Qurani Kərim”in Azərbaycan dilinə tərcüməçilərindən biridir. “Ərəb dilçiliyi”, “Quran və elm” və s. monoqrafiyaların, dərsliklərin müəllifidir.

**27 avqust 1998** – Görkəmli kinorejissor, Xalq artisti Tofiq Mehdiqulu oğlu Tağızadə (7.2.1919 – 1998) vəfat edib. Filmləri: “Görüş”, “Uzaq sahillərdə”, “Yeddi oğul istərəm”, “Dədə Qorqud”, “O dünyadan salam” və s.

**27 avqust 2022** – Azərbaycan miniatür sənətinin tədqiqatçısı, sənətşünaslıq doktoru, professor Cəmilə Yusif qızı Həsənzadə (7.12.1947 – 2022) vəfat edib.

### Dünya

**23 avqust 1851** – Çex yazıçısı Alois Yirasek (1851–1930) anadan olub. “Yan Qus” trilogiyası, “Yan Jijka” və s. tarixi romanların müəllifidir.

**23 avqust 1880** – Rus yazıçısı Aleksandr Qrin (Aleksandr Qrinevski; 1880–1932) anadan olub. Əsərləri: “Al yelkənlər”, “Dalğalar üzərində qaçan”, “Qızıl zəncir” və s.

**24 avqust 1899** – Argentina yazıçısı və şairi Xorxe Luis Borxes (Jorge Luis Borges; 1899–1986) anadan olub. Əsərləri: “Yaradan”, “Uydurmalar” və s.

**25 avqust 1891** – İtalyan yazıçısı, rəssam və bəstəkar Alberto Savinyo (Alberto Savinio – Andrea Di Chirico; 1891–1952) anadan olub. “Niobeyanın ölümü”, “Kapitan Uliss” dramlarının müəllifidir.

**25 avqust 1918** – Amerika bəstəkarı və dirijoru Leonard Bernstayn (1918–1990) anadan olub.

**25 avqust 1930** – Gürcü rejissoru, SSRİ Xalq artisti Georgi Daneliya (1930 – 4.4.2019) anadan olub. Filmləri: “Mən Moskvada addımlayıram”, “Mimino”, “Payız marafonu” və s.

**25 avqust 1930** – Şotland əsilli Amerika aktyoru Şon Konneri (Thomas Sean Connery; 1930 – 31.10.2020) anadan olub. Ceyms Bond haqqında 6 filmdə baş rola çəkilib. “Oskar” mükafatına (“Toxunulmazlar”, 1988) layiq görülüb.

**26 avqust 1914** – Argentina yazıçısı və şairi Xulio Kortasar (Julio Florencio Cortazar; 1914–1984) anadan olub. Əsərləri: “Uduş”, “Sonuncu raund”, “Manuelin kitabı” və s.

**27 avqust 1770** – Alman filosofu Georq Vilhelm Fridrix Hegel (Georg Wilhelm Friedrich Hegel; 1770 – 14.11.1831) anadan olub. Əsərləri: “Ruhun fenomenologiyası”, “Məntiq elmi”, “Tarixin fəlsəfəsi” və s.

**27 avqust 1856** – Ukrayna ədəbiyyatının banilərindən biri, yazıçı, şair İvan Franko (1856–1916) anadan olub. Əsərləri: “Kəsişən cığırlar” (roman), “Oğurlanmış xoşbəxtlik” (şeirlər toplusu).

**27 avqust 1871** – Amerika yazıçısı Teodor Drayzer (Theodore Herman Albert Dreiser; 1871 – 28.12.1945) anadan olub. Əsərləri: “Kerri bacı”, “Cenni Herhardt”, “Arzular trilogiyası”, “Amerika faciəsi”, “Dahi” və s.

**27 avqust 1896** – Rus aktrisası, SSRİ Xalq artisti Faina Ranevskaya (Feldman; 1896–1984) anadan olub. Bir müddət (1925–1927, 1929–1931) Bakı İşçi Teatrında çalışıb.

**Hazırladı: V.Orxan**

# Çin səhnəsində "Min bir gecə"

Xəbər verdiyimiz kimi, Azərbaycanın dünyaşöhrətli bəstəkarı Fikrət Əmirovun "Min bir gecə" baleti 23-25 avqust tarixlərində Çinin paytaxtı Pekində nümayiş olunacaq.

Dünyanın bir sıra səhnələrini fəth etmiş əsər Sankt-Peterburq Mariinski Teatrının Primorski səhnəsi (Vladivostok şəhəri) balet truppasının Çin Xalq Respublikası qastrolu çərçivəsində göstəriləcək.

Truppanın bədii rəhbəri Rusiyanın Əməkdar incəsənət xadimi Eldar Əliyevin yeni quruluş verdiyi tamaşaya çinli balet həvəskarları tamaşaları Pekin Milli İfaçılıq Mərkəzinin səhnəsində izləyəcəklər. Bu, yeni açılan Pekin İncəsənət Mərkəzinin səhnəsində ilk irimiqyaslı balet tamaşası olacaq.

Əsas rolları Anna Samstrelova, İrina Sapojnikova, Liliya Berejnova, Sergey Umanets, Viktor Mulıgin və başqaları ifa edəcəklər. Avqustun 25-də oynanılacaq tamaşada Şəhriyar rolunu



Sankt-Peterburq Mariinski Teatrının aparıcı solisti Azərbaycanın Əməkdar artisti Timur Əsgərov canlandıracaq.

Tamaşada Mariinski Teatrı Primorski səhnəsinin xoru, opera truppasının solistləri Anastasiya Kikot və əslən azərbaycanlı olan Samirə Həlimova da iştirak edəcəklər. Eləcə də tarda solistlər – Azərbaycan Akademik Opera və Balet Teatrının solisti Ramin Əzimov (Bakı) və Nadejda Medvedeva (Vladivostok) çıxış edəcəklər.

Çin Milli Baletinin simfonik orkestrinin dirijor pultu arxasında Azərbaycan Akademik Opera və Balet Teatrının baş dirijoru və musiqi rəhbəri Əməkdar artist Əyyub Quliyev olacaq.

"Min bir gecə" baleti Mariinski Teatrının Primorski səhnəsi truppasının ən parlaq tamaşalarından biri kimi geniş qastrol coğrafiyasına malikdir.

"Min bir gecə" baletinin Pekin ictimaiyyəti tərəfindən rəngların zənginliyini və misilsiz mədəniyyətinin koloritini əks etdirən irimiqyaslı tamaşa kimi qəbul edilməsi bizim üçün çox vacibdir. Mən istəyirəm ki, Azərbaycan musiqisi bütün dünyada səslənsin", – deyə xoreoqraf Eldar Əliyev deyib.

Qeyd edək ki, məşhur xoreoqraf soydaşımız Eldar Əliyev 2016-cı ildən Mariinski Teatrının Primorski səhnəsi balet truppasına rəhbərlik edir. O, Bakı Xoreoqrafiya Məktəbinin yetirməsidir, 1979–1992-ci illərdə indiki Sankt-Peterburq Mariinski Teatrının balet artisti olub. Müxtəlif ölkələrdə xoreoqraf kimi fəaliyyət göstərib, Çinin Şenyan Dövlət Konservatoriyasının fəxri professorudur.

# Ufa küçələri səhnəyə çevriləcək

Başqırdıstan (Rusiya Federasiyası) paytaxtının sakinləri və qonaqları üç gün ərzində müxtəlif şəhərlərdən olan aktyorların ifasında 40 tamaşa, performans və interaktiv səhnəciyi izləyə biləcəklər.




25-27 avqust tarixlərində Ufa şəhərində küçə teatrları festivalı təşkil ediləcək. Festivala Moskva, Sankt-Peterburq, Perm, Yoşkar-Ola, Kazan, Çelyabinsk və digər şəhərlərdən artistlər qatılacaq.

Avqustun 25-də bütün festival iştirakçılarının iştirakı ilə teatrallaşdırılmış açılış mərasimi olacaq. Sonrakı iki gündə Ufanın mərkəzi küçələrində karnaval yürüşü keçiriləcək.

# Kamal teatrı Moskvaya gedir



Sentyabrın 10-dan 15-dək Q.Kamal adına Tatarıstan Dövlət Akademik Teatrı Moskvada qastrol səfərində olacaq. Tamaşalar Rusiya Dövlət Akademik Malı Teatrında göstəriləcək.

Malı Teatrın iki səhnəsində Tatarıstan teatrının 6 tamaşası nümayiş olunacaq. Moskva teatrsevərləri "Çalxantı. Mühacirlər", "Rəqs heyranı", "Beş axşam", "Mavi şal", "Payız əks-sədası" və "Çit toy" səhnə əsərlərinə baxa biləcəklər.

**Gülcahan**

# İranda ilk qadın nazir

İran Prezidenti Məsud Pezeşkian tərəfindən etimad səsverməsi üçün təqdim edilən yeni hökumət kabineti siyahısı parlamentdə (İran İslam Respublikası Məclis) təsdiqlənib. Parlament hökumətin tərkibinə ilk dəfədən (bir səsvermə ilə) etimad göstərib.

Əvvəlki hökumət kabinetindən bir nəfər – kəşfiyyat naziri İsmail Xətibi vəzifəsində qalıb.

Xarici işlər naziri postuna təsdiqlənən Abbas Əraqçi 2017–2021-ci illərdə nazir müavini olub və ölkənin nüvə proqramı ilə bağlı danışıqlara rəhbərlik edib.

İndiyədək İran Silahlı Qüvvələri Baş Qərargah rəisinin birinci müavini vəzifəsini icra etmiş general-mayor Əziz Nəsirzadə müdafiə naziri təyin edilib. Onun mənşəcə türk (azərbaycanlı) olduğu bildirilir.

Müdafiə nazirinin keçmiş müavini Möhsün Paknejad neft naziri, Mərkəzi Bankın keçmiş rəhbəri Abdulnəsir Həmmati iqtisadiyyat naziri vəzifəsinə təsdiqlənib.

İlk dəfə İranın hökumət kabinetində qadın yer alıb. Fərzanə Sadiq yol və şəhərsalma naziri təyin edilib.

# Sabiq prezidentlər pensiyanın azlığından gileylənirlər

## "3100 dollara necə ailə saxlayaq?"

Polşanın 1995–2005-ci illərdə prezidenti olmuş Aleksandr Kvasnevski pensiyasının yetərli olmadığından şikayətlənib.

Onun sözlərinə görə, hazırda sabiq prezident kimi təqaüdü təxminən 12 min zlotı (təxminən 3100 dollar) təşkil edir ki, ondan hələ vergi də ödəməlisən.

"Bu məbləğ mənim böyük ailəm üçün yetərli deyil. Odur ki, əlavə pul qazanmaq lazım gəlir", – deyə Kvasnevski narazılığını dilə gətirib.

Sabiq dövlət başçısı əlavə edib ki, onu işləməyə vadar edən təkcə maddi səbəblər deyil: "Nə qədər ki, insanı dəvət edirlər, nə qədər ki, dinləmək istəyirlər, o zaman buna sevinə bilərsiniz. Bu o deməkdir, mən lazımam, hələ də bir şey edə bilərəm".

1990–1995-ci illərdə Polşanın dövlət başçısı olmuş Lex Valensa da bir qədər əvvəl maddi sıxıntıları olduğunu dilə gətirib. O da ayda 11-13 min zlotı təşkil edən təqaüdün məbləğindən razı olmadığını deyib: "Razı olsaydım, göbələk yığmağa, yaxud balıq tutmağa gedərdim, amma yenə də dünyanı gəzərək işləyirəm".

Xatırladaq ki, Lex Valensa prezidentlikdən öncə Polşanın "Solidarnost" həmkarlar hərəkatının lideri kimi Nobel Sülh Mükafatına (1983) layiq görülmüşdü.

# Tarixi abidəyə adını yazan turistlərə 40 min avro cərimə



İtaliyanın Florensiya şəhərində 1375-ci ildə inşa edilən və şəhərin simvolu sayılan "Veççio" körpüsünə adlarını yazan iki alman turist 40 min avro məbləğində cərimələnib.

Polis tarixi körpüyə qara flomasterlə adlarını yazarkən 21 və 23 yaşlı iki turisti yaxalayıb. Yerli bələdiyyə mədəni irsin zədələnməsi və ya məhv edilməsi ilə mübarizə məqsədilə qəbul edilən yeni qanunla iki turistə maksimal məbləğdə cərimə tətbiq edildiyini açıqlayıb.

Bələdiyyənin təhlükəsizlik üzrə məsul üzvü Andrea Giorgio şəhərin tarixi irsinə xələl gətirən turistlərə ilk dəfə belə yüksək cəza verildiyini qeyd edib. O, Florensiyaya gələn hər kəsin şəhərin abidələrinə hörmətlə yanaşmalı olduğunu vurğulayıb.

Florensiya Bələdiyyəsi ötən ilin aprelində tarixi körpünün 2 milyon avro dəyərində yenidən bərpası layihəsinə başlayıb.

# Varlılar da batır, kasıblar da...

## Britaniyalı milyarderin yaxtası bir dəqiqə içində suya qərq olub

59 yaşlı britaniyalı milyarder Mayk Linç İtaliyanın Palermo şəhərinin sahil zolağında sahibi olduğu lüks yaxtanın batması nəticəsində ölüb.



56 metr uzunluğunda yaxta avqustun 19-da yerli vaxtla səhər saat 5 radələrində güclü fırtına zamanı batıb. O, sahildən təxminən 800 metr uzaqda lövbər salıbmış. Hadisə şahidlərinin bildirdiyinə görə, yaxta cəmi bir dəqiqə içində sulara qərq olub.

Böyük Britaniya bayrağı altında üzən "Bayesian" adlı yaxtada olan 22 nəfərdən 15-i xilas edilib, bir nəfərin (şef-aşpaz) meyiti tapılıb. Mayk Linç və qızı Hanna, "Morgan Stanley International" bankının rəhbəri Conatan Blumer, Mayk Linçin vəkili Kris Morvillo və onların həyat yoldaşları itkin düşüblər. Avqustun 21-də dalğıclar dənizin 50 metr dərinliyində olan yaxtanın kayutalarından Linçin və daha dörd nəfərin cəsədini çıxarıblar.

Mayk Linç "Autonomy" proqram təminatı şirkətinin həmtəsisçisi olub. O, 90-cı illərdə sürətlə böyüyərək Böyük Britaniyada aparıcı mövqeyə çıxan şirkəti 2011-ci ildə informasiya texnologiyaları nəhəngi "Hewlett-Packard"a (ABŞ) 11 milyard dollara satıb. Linç bu satışdan 647 milyon dollar (500 milyon funt-sterlinq) mənfəət əldə edib. Ancaq bir il sonra "Hewlett-Packard" onun "Autonomy" şirkətinin dəyərini şişirtdiyini deyib və uzun məhkəmə çəkişməsi başlayıb. Linç 2022-ci ildə mühakimə olunmaq üçün ABŞ-yə ekstradisiya edilib. Proses bu ilin iyun ayında onun bəraət alması ilə yekunlaşmışdı.

***

2024-cü ilin əvvəlindən Aralıq dənizində mindən çox mühacir ölüb və ya itkin düşüb. Bu barədə Beynəlxalq Miqrasiya Təşkilatının (BMqT) məlumatında bildirilir.

Qeyd olunur ki, bu ilin yanvarından avqustadək Aralıq dənizi marşrutu üzrə qaçaq yolla Avropaya getmək istəyən 14 minə yaxın miqrant saxlanılaraq Liviyaya geri qaytarılıb.

Qeyd edək ki, son illərdə on minlərlə insan daha yaxşı həyat üçün Aralıq dənizindən keçərək "köhnə qitəyə" üz tutmağa cəhd göstərir. Mərkəzi Aralıq dənizi marşrutu ən təhlükəli miqrasiya marşrutu hesab olunur.

# Kralın yay istirahəti



Böyük Britaniya Kralı Çarlz yay tətilini Şotlandiyanın dağlıq ərazisi Aberdinşirdə yerləşən Balmoral qəsrində keçirir.

Kral Çarlz fəxri qarovul dəstəsinin müşayiəti ilə rəsmi qarşılanma mərasimi zamanı şotlandların milli geyimi olan "kilt" geyinib.

Balmoral qəsri Kraliça II Elizabetin də sevimli iqamətgahı olub və o, yay istirahətlərinin böyük hissəsini burada keçirib. Kral Çarlz da bu ənənəni davam etdirir.

Qəsrin daxili hissəsi ilk dəfə bu il iyulun 1-dən avqustun 4-dək turistlərin ziyarətinə açılıb. 100 funt-sterlinq dəyərində biletlər elandan dərhal sonra satılıb.

Xronoqraf

# Tarixdə bu gün



## Olaylar, faktlar (23 – 27 avqust)

### 953 il əvvəl...



**26 avqust 1071-ci ildə** Sultan Alp Arslanın başçılıq etdiyi Səlcuq ordusu ilə Bizans imperatoru Romen Diogenin qoşunları arasında Malazgird döyüşü (Türkiyənin Muş vilayətinin ərazisi) baş verib. Alp Arslanın 50 minlik süvari ordusu bizanslıların 200 minlik qoşunu üzərində qələbə çalıb. Bu qələbədən sonra türklərin Səlcuqlu dövləti Qafqaz-Yaxın Şərq regionunda hegemon gücə çevrilib.

### 510 il əvvəl...

**23 avqust 1514-cü ildə** Səfəvi dövlətinin başçısı Şah I İsmayılın qoşunları ilə Sultan I Səlimin (Sultan Səlim Yavuz) başçılıq etdiyi Osmanlı ordusu arasında Çaldıran düzündə (Maku şəhəri yaxınlığında) döyüş baş verib. Səfəvi ordusu məğlub olub. Çaldıran döyüşündə qələbə sayəsində Osmanlı dövləti Ərzurum daxil olmaqla Şərqi Anadolunu və Şimali Mesopotamiyanı (indiki Şimali İraq) ələ keçirib. Məğlubiyyət Səfəvilərin hərbi-siyasi nüfuzuna ağır zərbə vurub.

### 452 il əvvəl...

**24 avqust 1572-ci ildə** tarixə dəhşətli qətliamlardan biri kimi düşmüş "Varfolomey gecəsi" baş verib. Həmin gecə (Müqəddəs Varfolomey günü ərəfəsində) Parisdə katoliklər protestant təriqətinə mənsub olan qugenotları kütləvi şəkildə qətlə yetiriblər. Kraliça Katerine Mediçinin əmri ilə həyata keçirilən



qırğında, müxtəlif tarixi qaynaqlara görə, Parisdə 3 min, ümumilikdə Fransada 30 minədək qugenot məhv edilmişdi.

### 446 il əvvəl...

**24 avqust 1578-ci ildə** Səfəvi-Osmanlı müharibələrinin ikinci mərhələsi (birinci mərhələ 1555-ci ildə Amasya sülhü ilə yekunlaşmışdı) başlanıb. Çıldır döyüşündə Səfəvi qoşunlarına qalib gələn Osmanlı qüvvələri Tiflisi ələ keçiriblər. Lakin bir qədər sonra (sentyabr) Səfəvi qoşunları Tiflisi geri alıb, Osmanlı ordusunun şimal-qərbi Azərbaycan torpaqlarına irəliləməsinin qarşısı alınıb.

### 33 il əvvəl...

**27 avqust 1991-ci ildə** Bakı Şəhəri Xalq Deputatları Sovetinin qərarı ilə Lenin adına meydanda Vladimir Leninin heykəli sökülüb. Meydana Azadlıq adı verilib.

### 31 il əvvəl...

**23 avqust 1993-cü ildə** Ermənistan silahlı qüvvələri Azərbaycanın Cəbrayıl və Füzuli rayonlarının mərkəzlərini və kəndlərinin böyük hissəsini işğal edib. Həmin ilin oktyabrında hər iki rayon bütünlüklə işğal altına düşdü. 1994-cü ilin yanvarında Azərbaycan Ordusu Füzulinin Arazboyu kəndlərini və Horadiz qəsəbəsini düşməndən azad etdi. 2016-cı ilin Aprel döyüşləri sayəsində Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndinin sakinləri doğma yurda qayıtdılar. 2020-ci ilin 44 günlük Vətən müharibəsində Cəbrayıl (4 oktyabr) və Füzuli (17 oktyabr) şəhərləri, hər iki rayonun bütün kəndləri işğaldan azad edildi.

### 22 il əvvəl...

**24 avqust 2002-ci ildə** Azərbaycanda Konstitusiyaya əlavə və dəyişikliklər edilməsi ilə bağlı referendum keçirilib. Referendum aktında Konstitusiyanın 24 maddəsi üzrə 39 dəyişiklik (o cümlədən zərurət yarandığı halda Prezident səlahiyyətlərinin Milli Məclisin sədrinə deyil, Baş nazirə keçməsi) təklif olunmuşdu. Rəsmi nəticələrə əsasən, dəyişikliklərin lehinə (ayrı-ayrı bloklar üzrə) 96-97 faiz səs verilmişdi.

**Hazırladı: V.Orxan**

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin nəşri

MƏDƏNİYYƏT

Qəzet 1991-ci ilin yanvarından çıxır

**Baş redaktor:** Vüqar Əliyev

**Ünvan:** AZ 1012, Bakı şəhəri, Moskva prospekti 1D
Dövlət Film Fondu, 5-ci mərtəbə

**Telefon:** (012) 431-28-79 (baş redaktorun müavini)
431-57-72 (redaktor)
430-16-79 (müxbirlər)
530-34-38 (mühasibatlıq, yayım)

**E-mail:** qazet@medeniyyet.az
**Lisenziya № AB 022279. İndeks:** 0187. **Qiyməti:** 60 qəpik

"Mədəniyyət" qəzetinin kompüter mərkəzində səhifələnib,
"Azərbaycan" nəşriyyatında çap olunub.
**Tiraj:** 5086. **Sifariş:** 1913
**Buraxılışa məsul:** Fariz Yunisli

Yazılardakı faktlara görə müəlliflər cavabdehdir.
Qəzetdə AZƏRTAC-ın materiallarından da istifadə edilir.

**Bank rekvizitləri:**
Kapitalbank 1 saylı Yasamal filialı
**Kod:** 200037. **VÖEN:** 9900003611. **SWIFT:** AIIBAZ2XXXX
**Müxbir hesab:** AZ37NABZ01350100000000001944

MƏDƏNİYYƏT QƏZETİ REDAKSİYASI
**H/Hesab:** AZ98AIIB33080019443300232103. **VÖEN:** 1300338641